AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV ADINA TARİX VƏ ETNOLOGİYA İNSTİTUTU

# ŞUŞA

## BU QALA, BİZİM QALA...

(etnoqrafik etüdlər)

TOFİQ BABAYEV

BAKI – 2024

**AMEA-nın Tarix və Etnologiya İnstitutunun Elmi Şurasının 2024-cü ilin 30 aprel tarixli iclasının qərarı ilə (Protokol № 3) çap olunur.**

**Elmi redaktor: Tahir Şahbazov**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

**Rəyçilər: İlhamə Məmmədova**
**tarix elmləri doktoru**

**Ədalət Mustafayev**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

**Babayev Tofiq Ağababa oğlu. ŞUŞA: bu qala, bizim qala... (etnoqrafık etüdlər). Bakı: "Zərdabi Nəşr" MMC, 2024. – 114 s.**

Respublikanın əməkdar mədəniyyət işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Tofiq Babayevin oxuculara təqdim etdiyi növbəti kitabı Şuşanın şəhər kimi yaranma tarixinə, Qarabağ xanlığının paytaxtına çevrilməsinə, milli şəhərsalma mədəniyyətinin ənənələri əsasında inkişafına, məhəllə adlarının etimologiyası ilə bağlı məsələlərə – onların nəsil, tayfa, peşə-sənət sahələri ilə bağlılıq dərəcəsinə, şəhərin memarlıq quruluşuna, iqtisadi-ticari həyatına, görkəmli şəxsiyyətlərinə və onların Azərbaycanın ictimai fikir tarixində, elm, ədəbiyyat və mədəniyyətin inkişafındakı roluna və s. həsr olunmuşdur.

Sevindirici haldır ki, babalarımızın yenilməzlik rəmzinə çevirib bizə əmanət qoyub getdikləri Şuşa, şanlı əsgərimizin misilsiz şücaəti sayəsində 28 illik işğal zülmündən azad edilmiş və öz əbədi azadlığına qovuşmuşdur.

**ISBN 978-9952-571-82–0**

**© T.A.Babayev, 2024**

*"... Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir... Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir"...*

***Heydər Əliyev***
***Ümummilli lider***

# ÖN SÖZ

Azərbaycanlıların etnomədəni xüsusiyyətlərini özündə əks etdirən, sənətkarlıq, ticarət, elm mərkəzi olan Şuşa şəhəri zəngin tarixi-etnoqrafik ənənələrə malikdir. XVIII əsrin ortalarında salınan şəhər qısa müddətdə inkişaf edərək, zəngin mədəni dəyərlər qazanmışdır. Şuşada dulusçuluq, dəmirçilik, misgərlik, zərgərlik, ağacişləmə, daşişləmə, boyaqçılıq, keçəçilik, dabbağlıq, nəqqaşlıq, xalçaçılıq, ipəkçilik, toxuculuq, papaqçılıq, sərraclıq və digər sənət və peşə sahələri inkişaf etmişdi.

Tarix üzrə fəlsəfə doktoru, dosent Tofiq Babayevin yazdığı "Şuşa: bu qala, bizim qala...(etnoqrafik etüdlər)" adlı kitabında şuşalıların milli-məhəlli xüsusiyyətləri, adət-ənənələri, mədəni inkişafı haqqında xeyli məlumat toplanmışdır. Bədii-elmi üslubda qələmə alınan bu əsərdə Şuşa şəhəri yaranmasından ta müasir dövrədək tarixi-etnoloji tədqiqata cəlb olunur.

Şuşa şəhəri haqqında etnoqrafik məlumatlar mənbələrlə yanaşı, ayrı-ayrı müəlliflərin əsərlərində (Ç.Qacar və b.), dövri mətbuatda, internet resurslarında, həmçinin, şuşalı ziyalıların xatirələrində, müsahibələrində əksini tapır. T.Babayevin oxuculara təqdim etdiyi adı çəkilən kitabında həmin məlumatlar, eləcə də etnoqrafik sorğuların nəticələri toplanmış və onlara müəllifin elmi təhlilləri əlavə olunmuşdur.

Şuşada əsasən sənətkar və tacirlərin sakin olduğu müxtəlif məhəllələr vardı. Mənbələrdə əsasən 17 məhəllənin adı çəkilir. Onlardan bəzisi patronim adlarını (Köçərli, Mamayı, Merdinli, Seyidli, Qazançalı, Ağadədəli və s.) daşıyır, bəzisi isə peşə yönümünü (Dəmirçilər, Culfalılar və s.) bildirirdi. Şəhərdə coğrafi adlarla və ərazinin fiziki quruluşuyla bağlı oykumenlərə də rast gəlinir: Çöl-qala, Çuxur məhəllə, Quyuluq, Dördçinar və s. Bəzi məhəllələrin (Təbrizli, Əyrisli və s.) sakinləri miqrasiyadan öncəki toponimlərini qoruyub saxlamışlar. Elmi ədəbiyyatda Şuşanın urbanonimləri memarlıq və tarixi aspektdən tədqiq olunsa da (E.A.Avalov, Ş.Fətullayev və b.), təqdim olunan kitabda informatorlardan toplanan məlumat əsasında məhəllə adlarının etimologiyası, burada məskunlaşan patronimik qruplar, yaşayış məskəninin ixtisaslaşdığı sənət və peşə sahələri öyrənilir.

Şuşa şəhəri salındıqdan sonra qısa müddət ərzində sənətkarlıq və ticarət mərkəzinə çevrildi, Qafqazla yanaşı Yaxın Şərqdə və bütün Cənubi Qafqazda da tanındı.

Kitabda Şuşanın sənət dünyası maraqlı bədii lövhələrlə canlandırılır: sənət və peşə sahələri, onlarla bağlı adət-ənənələr təsvir edilir, bölgədə adla tanınan ustalar haqqında məlumat verilir. Şuşanın bölgə ticarətində oynadığı rolunu açıqlayan müəllif şəhərin ölkədaxili, həmçinin İran və Osmanlı dövlətlərinə aparan karvan yolları, bu ölkələrlə olan mal dövriyyəsi və s. məsələlərin etnoqrafik aspektdən izahını verir.

Xalq yaşayış məskənləri və evləri yerləşdikləri bölgənin ümumi inkişaf səviyyəsinin və orada yaşayan etnosun zövqü baxışlarının, dünyagörüşünün, eyni zamanda etnik mənsubiyyətinin göstəricilərindəndir. Bir çox orta əsr şəhərləri kimi, Şuşada da küçələr düşmən hücumlarına qarşı müdafiə məqsədilə dolanbac və döngəli salınır, həm də ərazinin relyef quruluşundan asılı olaraq enişli-yoxuşlu olurdu. Daş döşənmiş küçələr məhəllələri bir-birindən ayırır, mülk sahiblərinin iri imarətləri hasara alınırdı. Üzü qibləyə tərəf tikilən eyvanlı imarətlər Şərq memarlıq üslubunu əks etdirirdi. Şuşa imarətləri, onların daxili sahmanı burada yaşayan sakinlərin – bəylərin, tacirlərin həyat tərzindən xəbər verir. Kitabda Mehmandarovların, Xurşidbanu Natəvanın, Ə.B.Haqverdiyevin, Əsəd bəyin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin, Mamay bəyin, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzə Qacarın imarətləri, eləcə də müxtəlif ev tipləri tədqiqata cəlb olunur.

Şuşalıların mənəvi irsi Azərbaycan xalqının mədəniyyət xəzinəsini zənginləşdirir. Musiqi, bayramlar, qonaqpərvərlik, ağsaqqallıq və ağbirçəklik institutları, xeyriyyəçilik tədbirləri, adət-ənənələr, xalq oyun və əyləncələri, meydan tamaşaları, el deyimləri, müdrik sözlər və s. Şuşa əhlinin zəngin mənəvi dünyasını bəlli edir.

Tarixi-etnoqrafik səpkidə yazılan bu əsər Şuşanın müsəlman Şərqinin mühüm mədəniyyət mərkəzlərindən olduğunu təsdiqləyir. Şuşa əhalisinin maddi və mənəvi mədəniyyətinə dair aparılan etnoqrafik tədqiqatlar şəhərin tamamən müsəlman mədəniyyətinə xas elementləri özündə birləşdirdiyini göstərir. Buradakı ictimai tikililər, memarlıq və inşaat nümunələri, evlərin daxili sahmanı, əhalinin geyim və qidalanma mədəniyyəti Şuşanın sosial-mədəni inkişafını bəyan edir, şuşalıların mənəvi mədəniyyətinin, adət-ənənələrinin etnoqrafik xüsusiyyətləri azərbaycançılığı əks etdirir.

Əziz oxucu! Sizlərə təqdim olunan Tofiq Babayevin "Şuşa: bu qala, bizim qala... (etnoqrafik etüdlər)" adlı tədqiqatı 30 illədək düşmən tapdağında qalan və 44 günlük Vətən müharibəsində azadlığına qovuşan əziz Şuşanın tarixi-etnoloji irsinə həsr olunan ilk əsərdir. Kitabın geniş oxucu kütləsinin marağına səbəb olacağı şübhəsizdir.

**İlhamə Məmmədova**
***tarix elmləri doktoru***

# Tarixə bir nəzər

1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Azərbaycan ərazisində müstəqillik qazanmış 20-dən çox dövlət qurumundan – xanlıqlardan biri də Qarabağ xanlığı idi. Xanlığın yaranması və Şuşa şəhərinin onun mərkəzinə çevrilməsi Azərbaycanın görkəmli dövlət xadimi Pənahəli xanın [1747-1763] adı ilə bağlıdır. Pənahəli xan Cavanşir tayfasının Sarıcalı oymağından idi. Sarıcalı tayfası Qarabağın köklü tayfalarından olub, uzun illər bu bölgənin ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Azərbaycan tarixçisi Mirzə Camal Cavanşir Qarabaği (1773-1853) yazır ki, *"...Bunların (Sarıcalı tayfası – T.B.) ata-babaları Cavanşir eli arasında məşhur, adlı-sanlı, çörəkli, mal-dövlət və ehsan sahibi olmuş adamlar idilər"* **(Qarabağ tarixi. "Qarabağnamələr", I kitab, B., "Yazıçı", səh. 110)**.

Xanlıqlar arasında gücü və qüdrəti ilə seçilən Qarabağ xanlığı Azər-




Şuşanın ümumi görüntüsü (XIX əsr)

baycanın dövlətçilik tarixində mühüm yer tutmuşdur. Pənahəli xan xanlığı xarici hücumlardan müdafiə etmək məqsədilə əvvəlcə bir müddət onun mərkəzi olmuş Bayat, sonra isə Şahbulaq qalalarını tikdirmişdir. Lakin həmin qalaların hərbi-strateji baxımdan əlverişli olmamasını, mümkün hücumlara davam gətirə bilməyəcəyini nəzərə alaraq Pənahəli xan daha etibarlı, daha əlverişli və düşmən hücumuna dayanacaq yeni bir qala – Şuşa qalasını inşa etdirmiş və paytaxtı oraya köçürmüşdür.


Pənahəli xan

"Qarabağnamələr"in müəlliflərindən biri – Mirzə Yusif Qarabağinin (1789-1864) yazdığına görə, *"Pənahəli xan qalanın yerini seçib bəyəndikdən sonra – 1752-ci ildə xoş bir gündə şəhərin köhnə barısını bina edib, cənub-qərbdən, şimal-şərqdən, həmçinin qərb və cənub tərəfdən ətrafına hasar çəkdirir. Bu ərazi piyada və qeyriləri üçün gediş-gəlişi mümkün olmayan möhkəm divar və təbii sıldırım qayalarla əhatə olunmuşdu. Divarlar şəhərin aşağı tərəfində və şərq tərəfinin bəzi yerlərində beş arşın (1 arşın təqr. 75 sm) hündürlüyündə, iki arşın enində idi. Bu divardan nə top gülləsi, nə də*

*başqa bir şey keçməzdi* **(Mirzə Yusif Qarabaği "Tarixi-Safı", "Qarabağnamələr", II kitab, B., 1991, səh.18-19).** Zaman da göstərmişdir ki, dəniz səviyyəsindən 1500-1600 metr yüksəklikdə olan möhtəşəm divarlar tarixin müxtəlif dönəmlərində şəhəri xarici müdaxilələrdən qorumuş və nəticədə bir yenilməzlik simvoluna çevrilmişdir. Qarabağ xanının vəziri, şair Molla Pənah Vaqif hələ o dövrdə Şuşanın alınmaz qala olduğunu söyləmişdi: *"Əgər məni qoruyan mənim tanıdığımdırsa, Şüşəni daş içərisində də salamat saxlar"* (**Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi, "Qarabağnamələr", I kitab, B., 1989, səh.165**).



Şuşa qalasına gedən yol



Şuşa qalası

Bəzi tədqiqatçılar şəhərin 1752-ci ildə Pənahəli xan tərəfindən daha qədim bir şəhərin özülləri üzərində inşa edildiyi qənaətindədirlər. Ətrafına hündür divarlar çəkildikdən sonra xalq arasında *Qala, Şuşa qalası, Şişə və ya Şişə qalası*

adı ilə məşhur olan bu şəhər bir müddət Pənahəli xanın şərəfinə *Pənahabad* da adlanmışdır. XIX əsrdə və XX əsrin əvvəllərində yaşamış şair və ədiblərimiz – Molla Pənah Vaqif, Qasım bəy Zakir, Seyid Əzim Şirvanı, Mirzə Ələkbər Sabir, Yusif Vəzir Çəmənzəminli və başqaları çox vaxt "Şuşa qalası" əvəzinə "Şişə qalası" adını işlətmişlər. "Yüksəklik", "ucalıq" mənası verən bu ad şəhərin salındığı ərazinin relyefinə uyğun olub, onun sıldırım və şış qayalarla əhatə olunduğunu simvolizə edir. Bununla bərabər, dağlar qoynunda yerləşmiş şəhərin büllur kimi təmiz-saf və şəfalı havasına və suyuna görə də ona "Şişə" (*Şüşə*) adının verilə bilməsini ehtimal etmək olar.








Qala divarının açarı. "Pənahabadi" gümüş sikkəsi. Pənahəli xanın qəbir daşı (Milli Azərbaycan Tarixi Muzeyi)

Tarixi qaynaqlardan məlum olur ki, Pənahəli xan xanlığın hərbi-siyasi qüdrətini artırmaqla yanaşı, onun sosial-iqtisadi və mədəni inkişafı üçün də mühüm işlər həyata keçirmişdir. Belə ki, xanlığın digər ölkələrdən asılılığını azaltmaq və müstəqil maliyyə siyasəti yeritmək üçün xan, Pənahabadda zərbxana təsis etmiş və burada öz adına "Pənahabadi" adlanan gümüş sikkələr buraxmağa başlamışdır ("Pənahabadi"nin dəyəri 10 şahı, yaxud 18 qəpik gümüş və ya 70 qəpik rus mis pulu qiymətində idi) ki, bu da xanlığın iqtisadi və ticarət əlaqələrin-

də mühüm rol oynamışdır. Təsadüfi deyil ki, Şuşa qısa bir zaman kəsiyində təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın ən mühüm siyasi, iqtisadi və mədəni mərkəzlərindən birinə çevrilmişdir.



Qaladan görüntü, XIX əsr (V.V.Vereşşaqinin rəsmi)

Pənahəli xan hələ Şuşa şəhərinin binası qoyularkən, vaxtilə Bayat qalasında, sonralar isə Şahbulaq qalasında məskunlaşdırdığı bütün rəiyyətlərin, əyanların, məliklərin, mülazimlərin, ellərin və bir para kəndlərin kəndxudalarının ailələrini köçürüb qalaya yerləşdirmişdi **(Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi, "Qarabağnamələr", I kitab, B., 1989, səh.116).** Bundan əlavə o, Qarabağ kəndlərinin və ellərinin türkdilli əhalisini, ağıllı, işgüzar sənət adamlarını, təcrübəli ustaları və sənətkarları da öz başına toplayırdı. Tarixçi Rzaqulu bəy Mirzə Camal oğlunun yazdığından məlum olur ki, Pənahəli xan

"döyüşçü tayfa" kimi ad çıxarmış *kəngərlilərin* də bir hissəsini Naxçıvandan Qarabağa dəvət etmişdi. Təbriz və Ərdəbil vilayətlərindən xeyli sayda insan, o cümlədən müxtəlif sənət-peşə sahibləri öz ailələri ilə birlikdə gəlib Şuşada yerləşmişdilər. *"Pənahəli xan onların hamısının vəziyyətini yaxşılaşdırıb varlandırır, onları torpaq, mal, at sahibi etmişdi"* **(Rzaqulu bəy Mirzə Camal oğlu, Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri, II kitab, B., 1991 səh.210).**



Xan sarayının istirahət zalı

Digər xanlıqlardan və məmləkətlərdən də öz ailələri və yaxın qohumları ilə gəlib Pənahəli xanın qüdrətinə sığınanlar vardı. Xan tərəfindən onlara ev tik-

mək üçün yer ayrılır, geniş otlaqlar və kəndlər bağışlanırdı. 1759-cu ildə Gürcüstanla sərhəddə baş verən siyasi gərginlikdən sonra Pənahəli xanın ədalət və şövkət təntənəsinin sədasını eşidən yerli camaat öz istəkləri ilə onun möhkəm bünövrəli dövlətinə pənah gətirmişdilər, *"Onlar Qarabağda yurd və məskən tutaraq böyük sədaqət və son dərəcə səmimiyyətlə Pənahxana itaət etdilər,... xandan son dərəcədə hörmət, izzət və mərhəmət gördülər"* **(Mirzə Adıgözəl bəy. Qarabağnamə. "Qarabağnamələr", I kitab, B., 1989, səh.36).**

Bu vəziyyəti təfərrüatı ilə qeyd edən Firidun bəy Köçərli yazmışdır: *"Gürcüstan padşahı İrakli xanın vaxtında və Qazax mahalının vəkili Pənah ağanın zamanında Qazax mahalından bir neçə elat Gürcüstan hökumətinin zülmünün həddinin aşmasından təngə gəlib, Qarabağ vilayətinə köçüb gediblər. Məzkur elat bunlardır: Qaracarlı, Cinli, Salahlı, Dəmirçi Həsənli, Saatlı, Qızılhacılı, Qaraqoyunlu, Alpout, Səfikürd, Boyəhmədli, Kəngərli, Xəlfəli* və qeyriləri. *Bu köçmək el içində "eldöndü" adlanır..."* **(Köçərli F. Azərbaycan ədəbiyyatı. 2 cilddə, I c., B., Elm, 1978, səh.160-161).**



Məsələ ilə bağlı professor

M.Allahmanlı isə yazır ki, *"... Dövrünün yüksək səviyyəli ziyalısı Şəfi Əfəndidən mükəmməl təhsil alan Molla Pənah Vaqif də yerli camaatla birlikdə doğma yurdunu tərk etməli olur"* **(Mahmud Allahmanlı. Təxəllüsü Vaqif, nəzmi dürəfşan. B., 2017, səh. 63-64).**

Mir Mehdi Xəzanının məlumatına görə, *"Pənahəli xan qalanın bir kənarında, hündür təpənin üzərində özünə möhtəşəm bir imarət tikdirmişdi. Böyük oğlu İbrahimxəlil xana da təpə üzərində öz evinə bərabər bir imarət yapdırmışdı ki, düşmən qalaya gələn çağda müdafiə imkanına malik olsun. Pənahəli xanın oğlanları Mehrəli bəy də, Talıb bəy də belə yaraşıqlı binalarda yaşayırdılar. Sonralar İbrahimxəlil xanın böyük oğlu Məhəmmədhəsən ağa üçün inşa edilmiş bina Şuşanın ən mənzərəli binası oldu"* **(Mir Mehdi Xəzani. "Kitabi-tarixi Qarabağ", "Qarabağnamələr", II kitab, B., 1991, səh.198).**

Qala-şəhər böyüdükcə onun daxilində tikinti-inşaat işləri ilə yanaşı, geniş quruculuq və abadlıq işləri də aparılırdı.



# İlmə-ilmə toxunan şəhər

Məlum olduğu kimi, tarixin bütün dövrlərində, o cümlədən xanlıqlar dönəmində Azərbaycan şəhərləri üçün *məhəlləli plan quruluşu* səciyyəvi olmuşdur. Məhəllə adları isə ilk növbədə təbii-coğrafi şəraitin xarakterinə uyğun formalaşmış, dövrün şəhərsalma mədəniyyətinin xarakterinin, şəhərin sosial-iqtisadi və mədəni həyatının müxtəlifliyinin, nəhayət əhalinin milli-etnik xüsusiyyətlərinin başlıca təzahürü kimi çıxış etmişdir.

Bu baxımdan Şuşa şəhərinin də qədim məhəllələrinin yaranma tarixi və etnoqrafiyası böyük maraq doğurur. Doğrudur, mənbə və ədəbiyyatda Şuşa şəhərinin tarixi və mədəniyyəti ilə bağlı kifayət qədər geniş məlumatlar olsa da, məhəllə adlarından, bu adların mənşəyindən və etnoqrafik xüsusiyyətlərindən ətraflı bəhs olunmamış, epizodik xatırlatmalar verilmişdir. Bu səbəbdən biz təqdim etdiyimiz kitab-albomda əsas diqqəti məhz bu məsələlərə – ayrı-ayrılıqda hər bir məhəllənin adının etimalogiyasına, onların nəsil, tayfa, sənət-peşə və s.-lə bağlılıq dərəcəsinə, məhəllələrin quruluşuna, buranın sakinlərinin əsas məşğuliyyət sahələrinə yönəltməyə çalışacaq, həmçinin ayrı-ayrı məhəllələrdə doğulub boya-başa çatan şəxsiyyətlər, onların Azərbaycanın tarixində və mədəni-mənəvi inkişafında yeri və rolundan bəhs edəcəyik.

Əvvəla qeyd edək ki, Şuşa şəhəri salınarkən ərazisi relyefə uyğun olaraq 2 hissəyə – Aşağı və Yuxarı məhəllələrə bölünürdü. Pənahəli xanın hakimiyyəti illərində şəhərin şərq sahəsinin aşağı hissəsində qala divarlarının və qəsrlərin inşa edilməsi ilə Şuşanın **"Aşağı məhəlləsi"** adlanan hissəsini təşkil edən *Qurd-*

*lar, Çuxur, Culfalar, Seyidli, Quyuluq, Hacı Yusifli, Mərdinli, Qazançılı* və *Çölqala* adlanan doqquz məhəllə yaranmışdır **(Baharlı. "Əhvalati-Qarabağ", "Qarabağnamələr", II kitab, B., 1991, səh.277).** Buranın relyefi əsasən düzənlik ərazilərdən ibarət olduğundan, məhəllə daxilində geniş küçə və meydanlar formalaşmışdır. Məhəllələr bir-birindən hasarlarla ayrılmırdı; sərhəd çox vaxt kərpic və ya daşdan qurulmuş iki hündür çəpərin arasındaki ensiz keçidi xatırladan əyri-üyrü küçələrdən keçirdi Məhəllələr arasında çox vaxt meyvə ağacları əkilir, bağlar salınır və yaşıllıqlar yaradılırdı **(E.A. Avalov, 1977, səh. 44)**.



İbrahimxəlil xan

"Aşağı məhəllə" formalaşdığı ilk illərdə xalq arasında *Təbrizli məhəlləsi* adı ilə də tanınırdı. Bu adın tarixi əsasən Təbriz və Ərdəbil şəhərlərindən çox sayda sənətkar ailələrinin buraya köçürülməsi, sonra isə Bayat və Şahbulaq qalalarında məskunlaşdırılması ilə bağlıdır. *"Pənah xan Şuşanı Qədim Azərbaycan memarlıq ənənələri əsasında tikmək üçün adamlar göndərmiş, Təbriz, Ərdəbil və başqa şəhərlərdən ustalar gətirtmişdi. Şonralar həmin ustaların özləri də Şuşada sakin olmuşdular"* (**Həsən İxfa Əlizadə. Şuşa şəhərinin tarixi, "Qarabağnamələr", II kitab, 1991, səh. 316**).

Pənahəli xanın ölümündən sonra (1763-cü il) Qarabağ xanı olan oğlu İbrahimxəlil xan xanlığın müdafiə qabi-

liyyətini daha da gücləndirmək məqsədilə şəhərin ətrafına möhkəm müdafiə divarları çəkdirdi. Dövrün məşhur şairi Molla Pənah Vaqifi özünə baş vəzir təyin etdi. Xandan sonra ən nüfuzlu dövlət adamı olan Vaqif xanın yaxın məsləhətçisi və köməkçisi idi. Bu haqda məlumat verən Rzaqulu bəy Mirzə Camal oğlu yazırdı: *"... Axund Molla Pənah əqli, tədbiri və kamalı ilə məşhurdur. İranda, Türkiyədə böyük şöhrət qazanmışdı. Təxəllüsü "Vaqif" idi. Onun türkcə yazdığı şeirləri ağızlarda deyilir və dillər əzbəridir"* (**Rzaqulu bəy Mirzə Camal oğlu, Pənahəli xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri, "Qarabağnamələr", II kitab, 1991, səh. 244-245**).



Şuşanın qala divarları (XIX əsr)

Xanlığın daxili və xarici siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsində yaxından iştirak edən M.P.Vaqif digər Azərbaycan xanlıqları ilə əlaqə-

ləri yaxşılaşdırmağa ciddi səy göstərirdi. *"Azərbaycan türklərinin məşhur və müqtədir şairi" (F.Köçərli) M.P.Vaqif ədəbiyyat tariximizdə Qarabağ ədəbi məktəbini yaratmış və bu məktəbin onlarla sənətkarı Azərbaycanın ictimai, siyasi, mədəni mühitinin zənginləşməsində mühüm rol oynamışdır"* (**M.Allahmanlı, səh. 63-65**). Bundan əlavə o, Şuşada aparılan geniş miqyaslı tikinti-abadlıq işlərinə də rəhbərlik edirdi (**Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX-XX веков. Ленинград, 1986, стр. 101**).



İbrahimxəlil xanın qızı Qara Böyük xanımın qəsri

İbrahimxəlil xanın dövründə (1763-1806-cı illərdə) Şuşa yaylasının şərq hissəsində aparılan tikinti işlərindən sonra şəhərin ərazisi və əhalisi xeyli artdı

ki, bunun da nəticəsində daha səkkiz yeni məhəllə – *Xanlıq, Saatlı, Köçərli, Mamayi, Xoca Mərcanlı, Dəmirçi, Hamamqabağı* və *Təzə məhəllə* meydana gəldi. Xalq arasında ***Yuxarı məhəllə*** adlandırılan (**Baharlı. Göstərilən əsəri. Səh. 277**) bu məhəllələr Şuşa şəhərinin ikinci böyük hissəsini təşkil etdi. Beləliklə, Qala-şəhərdəki məhəllələrin ümumi sayı 17-yə çatdı.



Ulu öndər Heydər Əliyev M.P.Vaqifin məqbərəsində

Qarabağ xanlığının baş vəziri, şair Molla Pənah Vaqif də bu məhəllədə yaşamış, buradakı məsciddə açdığı mədrəsədə dərs demişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan M.P. Vaqifin məqbərəsinin açılışı 1982-ci ilin yanvarında oldu. Hündürlüyü 20 metr olan bu gözəl memarlıq əsəri incə və naxışlı şəbəkə ilə bəzə-

dilmiş, ona qırmızıya çalan yerli mərmərdən üzlük çəkilmişdi (işğal dövründə ermənilər tərəfindən vəhşicəsinə dağıdılmış Molla Pənah Vaqifin memarlıq abidəsi 2022-ci ildə yenidən bərpa olunmuşdur).



M.P.Vaqifin məqbərəsinin bərpadan sonrakı vəziyyəti



İşğal dövründəki vəziyyəti (1992-2020)

# Çuxur məhəllə

XVIII əsrdə Şuşada salınan ilk məhəllə olub, şəhərin "Aşağı məhəllə" hissəsindədir. Adından da göründüyü kimi, məhəllə relyef baxımından qismən çala-çuxur yerdə salındığından *Çuxur məhəllə* adlandırılmışdır. Yerin yaşayış üçün əlverişli olduğunu və hərbi baxımdan strateji əhəmiyyət daşıdığını görən Pənahəli xan Cavanşir qalanın bünövrəsini də məhz burada qoymuş, əvvəlcə dairəvi və düzbucaqlı bürclər, müşahidə məntəqələri, xəbərdarlıq qalacıqları, atəş nöqtələri olan möhkəm və qalın divarlar, daha sonra isə özü, qardaşı və övladları üçün imarətlər ucaltmışdır. Sonralar xanın digər yaxın qohum-əqrəbaları da məhəllədə bir-birinə yaxın ikimərtəbəli evlər tikdirmişdilər.



Çuxur məhəllə, Gəncə qapısı

Məhəllə ərazisində məscid, bulaq, hamam, insanların inam bəslədiyi, pənah apardığı 2 minarəli şəfa ocağı – ziyarətgah var idi. İbrahimxəlil xanın böyük oğlu Məhəmmədhəsən ağanın, Hacı Qulunun, Məhəmmədbəyin (Batmanqılıncın) mülkləri, Qarabağ xanlığının divanxanası, Uğurlubəy karvansarası, Azərbaycan pro-

fessional vokal sənətinin böyük nümayəndələrindən biri olan Bülbülün (Murtuza Məşədi Rza oğlu Məmmədovun) ev-muzeyi də bu məhəllədə yerləşirdi (ermənilər tərəfindən vəhşicəsinə dağıdılmış ev-muzeyi bərpa olunmuşdur – 29.08.21). Məhəllədə çoxlu tacir dükanları, müxtəlif sənət və peşə sahələrinə aid emalatxanalar var idi.




Bülbülün ev muzeyi

Hələ uşaq ikən öz gözəl və ürəkaçan səsi ilə o dövrün məşhur xanəndələrinin – Bülbülcan, Keçəçi oğlu Məhəmməd, Segah İslam və Cabbar Qaryağdı oğlunun qəlblərini fəth etmişdi. *"Bülbül "Qayabaşı"nda, "Qırx pilləkan"da, "Cıdır düzü"ndə öz məlahətli səsini "Topxana" bülbüllərinin incə nəğməsinə qoşaraq, xanəndələr kimi oxumağa, ağır dərdlərini unutmağa çalışırdı. Onun incə bir məharətlə sarı bülbülləri yamsılamağını görən şəhər əhli hələ o zamandan balaca Murtuzaya Bülbül adı vermişdi"* **(Firidun Şuşinski. Azərbaycanın xalq musiqiçiləri. B., 1970, səh.260)**.

# Qurdlar məhəlləsi


Zöhrabbəyovların imarəti

Şuşanın XVIII əsrdə salınmış "Aşağı məhəllə"-lərindədir. Məhəllənin adı qədim türk mənşəli *Kəngərli* tayfasının ən güclü tirələrindən biri olan *Qurdlar* tirəsinin adı ilə bağlıdır. Mənbələrə görə, kəngərlilər bizim eranın əvvəllərində türkdilli tayfa birliyi *hunların* tərkibində Cənubi Qafqaz ərazisinə gəlmiş, əsasən Naxçıvanda və Azərbaycanın Qərb bölgəsində yerləşdirilmişdi. Pənahəli xan kəngərlilərin bir hissəsini Naxçıvandan Qarabağa köçürmüş və Şuşa şəhərində

məskunlaşdırmışdı (**Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. 2 clilddə, c. 2, B., 2007, səh. 74**)

Məlum olduğu kimi, türk xalqları arasında "əziz və mübarək üzlü" bilinən qurdla bağlı çox sayda inam, yasaq və sınamalar var. "Qurddan adama ziyan gəlməz" inancı bu günə qədər yaşamaqdadır. "Kitabi-Dədə Qorqud"dastanında "Qurd yüzü mübarəkdir" (üzü nurlu olan) deyimi söylənilir və soyun kökü, başlanğıcı onunla əlaqələndirilir. Sonralar qurd türk xalqları arasında totem səviyyəsinə ucaldılmış və tədricən etnonimə (tayfa adına) çevrilmişdir (**Cəlal Bəydili Məmmədov. Türk mifoloji sözlüyü. B., 2003, səh. 230**). XVIII yüzilin ortalarında Qarabağ elində *Dördlər qurdu, Qurd-Qarabağlı, Qurd Bərdə* adlı yaşayış məntəqələri mövcud olmuşdur.



Əhməd bəy Ağaoğlunun ata mülkü

Azərbaycan xanəndəlik məktəbinin görkəmli nümayəndəsi, məlahətli səsə, güclü zəngulələrə malik Zülalov Əbdülbağı Kərbalayi Əli oğlu (az vaxtda hədsiz sevgi və məhəbbətin ifadəsi kimi *Bülbülcan* adlandırılmışdır) Qurdlar məhəlləsindən idi. Xarrat Qulunun musiqi məktəbini bitirdikdən sonra Bülbülcan tarzən Sadıqcan ilə birlikdə Qarabağ, Şəki, Şirvan və Gəncə məclislərində, el şənliklərində çıxış edirdi. Bu sənətkarda həm gözəl səs, həm cəlbedici sima, həm də səhnə mədəniyyəti var idi. Xan qızı Natəvanın bağında qurulan məclislərdə, xüsusilə onun Şuşaya su çəkdirməsi münasibətilə təşkil olunan xalq şənliyində Əbdülbağı də iştirak etmiş və az bir vaxtda böyük şöhrət qazanmışdı **(Firidun Şuşinski. Azərbaycanın xalq musiqiçiləri. B., 1970, səh.65)**.


Zülalov Əbdülbağı (Bülbülcan)

Zöhrabbəyovların üçmərtəbəli evi, Azərbaycanda türkçülük hərəkatının ideoloqlarından olan Əhməd bəy Ağayevin (*Ağaoğlu*) doğulub böyüdüyü ata (Qarabağ xanı Pənahəli xanın nəslindəndir) mülkü, İbrahimxəlil xanın qızı Qara Böyük xanımın sarayı da Qurdlar məhəlləsində yerləşirdi. Məhəllənin məscidi, bulağı və hamamı var idi.

# Seyidli məhəlləsi

Şuşanın "Aşağı məhəllə" hissəsindədir. Məhəllənin adı XVIII yüzilin ortalarında Qarabağ elindən olan, Şuşa qalasının divarlarının tikilməsində iştirak edən, əsasən Ağdamın Kəbirli mahalının eyniadlı kəndindən köçüb gəlmiş *seyidlər* nəslinə (bu soyun ulu babası Şərifbəy Kəbirli idi) mənsub ailələrlə bağlıdır. Lakin adın Məhəmməd Peyğəmbərin (S), onun qızı Fatimə və Hz.Əlinin nəslindən olan müsəlmanlara verilən fəxri adla bağlı olduğunu düşünənlər də vardır.



Seyidli məhəlləsindən görüntü

Məhəllədəki "Seyidli məscidi", "Seyidli hamamı", "Seyidli bulağı" da məhəllənin adından götürülmüşdür. Cıdır düzündən Seyidli məhəlləsinə qalxan yolda qədim yaşayış evləri vardı. Burada insanların pənah apardığı müqəddəs şəfa ocağı da mövcud olmuşdur.



Cabbar Qaryağdı oğlu

Azərbaycan musiqi mədəniyyətinin inkişafında görkəmli rol oynamış xanəndələrdən olan Cabbar Qaryağdı oğlu (Cabbar Məşədi İsmayıl oğlu) bu məhəllədə – boyaqşı ailəsində doğulmuşdur. O, Azərbaycan milli mədəniyyət tarixində böyük muğam ustası, məşhur musiqi xadimi və vokal sənətinin ən görkəmli nümayəndələrindən biri kimi tanınır **(Firidun Şuşinski. Azərbaycanın xalq musiqiçiləri. B., 1970, səh.81-115)**. Cabbar Qaryağdı oğlu 300-ə qədər mahnı və təsnifin həm mətnini, həm də musiqisini sistemləşdirmişdir **(Üzeyir bəy Hacıbəyli)**.



Görkəmli yazıçı və dramaturq Süleyman Sani Axundov da Seyidli kəndində anadan olmuş və ibtidai təhsilini burada almışdır.

# Quyuluq məhəlləsi

Şuşanın "Aşağı məhəllə" hissəsində yerləşib, şəhərin şərq hissəsini əhatə edən təpəlikdən ibarət idi. Deyilənə görə, XVIII yüzilin ortalarında Təbriz və Ərdəbil şəhərlərindən gəlmə əhali Şuşada məskən salarkən suya ehtiyaclarını ödəmək məqsədilə bu məhəllədə çox sayda quyular qazmışlar. Ona görə də məhəlləyə *Quyuluq məhəlləsi* adı verilmişdir ki, bu da *"su quyuları ilə bol olan məhəllə"* mənasını ifadə edir.



Tarixçi Mirzə Camal yazır ki, *Qalanın yeri müəyyən edilərkən onun daxilindəki iki-üç bulaqdan başqa ərazidə su mənbəyi yox idi. Bu bulaqların suyu isə Qala camaatına kifayət etmədiyindən, güman edilən yerlərdə quyu qazdıraraq*

*müəyyən ediblər ki, burada su quyuları təşkil etmək mümkündür. Xəbəri Pənah*



*xana çatdırdıqdan sonra, xan bir neçə nəfər yaxın adamı ilə ora gələrək, yerlə tanış olmuş və əzmlə qalanın binasını qoymuşdur* **(Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi, "Qarabağnamələr", I kitab, B., 1989, səh. 104-148)**.

Yeri gəlmişkən qeyd edək ki, Orta əsrlər Azərbaycan şəhərlərində əhalinin suya tələbatının ödənilməsində quyulardan istifadə edilməsi faktı həm yazılı mənbələr, həm də arxeoloji qazıntılarla təsdiqlənmişdir.

# Culfalar məhəlləsi

Şuşanın "Aşağı məhəllə" hissəsindədir. Tədqiqatçıların fikrincə, əhalisinin yarıdan çoxu əsasən toxuculuqla – *culfaçılıqla* (daha çox bez istehsalı ilə) məşğul olduğuna görə məhəllə belə adlanmışdır. Məsələn, XIX yüzilliyə aid qaynaqlardan məlum olur ki, Şuşada 80 toxucu dəzgahı olan 28 bez karxanası fəaliyyət göstərmiş və il ərzində burada hər birinin uzunluğu 18 arşın, eni 7 gireh olan 8000 ədəd bez toxunmuşdur (**Arif Mustafayev. Azərbaycanda sənətkarlıq. B, 1999, səh 281**). Burada əl dəzgahlarında müxtəlif çeşiddə cecim, pambıq, bez və digər arşınnüma parçalar toxuyur, geyim nümunələri hazırlayırdılar. Toxunan mallar bir sıra xarici ölkələrə – İran, Türkiyə, Rusiya və s. yerlərə də göndərilmişdir. Ərazidəki "Culfalar məscidi", "Culfalar hamamı", "Culfalar bulağı" da məhəllənin adı ilə bağlıdır.



Culfalar məhəlləsi



Culfalar məscidi

# Mərdinli (Merdinli) məhəlləsi

Şuşanın "Aşağı məhəllə" hissəsində yerləşib, əsasən şəhərin mərkəzini əhatə etmişdir. Qaynaqların məlumatına görə, məhəllə Cavanşir-Dizaq mahalının Mərdinli, Zərgər, Qaraxanbəyli, Seyidmahmudlu, Dədəli, Yağlavənd, Hacılı obalarının əhalisindən ibarət olmuşdur. 1873-cü ildə burada Xurşudbanu Natəvan tərəfindən inşa edilmiş şirin su hamamı (şirin su ilə işlədiyi üçün belə adlanır) Şuşada ən qədim hamam hesab olunmuşdur. Hamamın bir hissəsi qadınlara, digər hissəsi isə kişilərə xidmət göstərirdi. Daha dəqiq desək, həftə ərzində



Mərdinli məhəlləsi



Şirinsu hamamı

4 gün qadınlar, 3 gün kişilər hamamın xidmətindən istifadə edirdilər. Çox sayda yuyunma otaqları ilə yanaşı, hamamda dincəlmək, istirahət etmək üçün çay otağı da fəaliyyət göstərmişdir.

Dövrünün məşhur ziyalılarından olmuş Mehmandarovların yaraşıqlı, zövqlə tikilmiş mülkü, bəstəkar Zülfüqar Hacıbəylinin ikimərtəbəli geniş evi və Şuşa bəylərindən biri, "Difai" təşkilatının üzvü Cahangirxan Nurubəyovun mülkü də bu məhəllədə yerləşirdi. Məhəllə meydanındakı XIX əsrə aid Mərdinli məscidinə gedən yolun üstündə bulaq da mövcud olmuşdur.



Mehmandarovun mülkü



Zülfüqar Hacıbəylinin evi

# Hacı Yusifli məhəlləsi





Şuşanın "Aşağı məhəllə" hissəsində olub, şəhərin şərq hissəsini əhatə etmişdir. Məhəllənin adı vaxtilə burada yaşamış və əhali arasında böyük hörmət və nüfuz sahibi olmuş Hacı Yusif ağanın adı ilə bağlıdır. Hacı Yusif Hacı Rəhim ağa oğlu Qarabağ xanı Pənahəli xan Cavanşirin hakimiyyəti dövründə xanlığı idarə edən mərkəzi dövlət aparatına başçılıq edən *divanbəyi* idi. Məhəllədəki "Hacıyusifli məscidi" (XIX əsr), onun qarşısındakı meydanda yüksək zövqlə bəzədilmiş "Hacıyusifli bulağı", həmçinin "Hacıyusifli hamamı" da məhəllənin adı ilə bağlıdır. Aşağı Kövhərağa məscidi də bu məhəllədədir. Şair Qasımbəy Zakir, ədəbiyyatşünas, rəssam və musiqişünas Mir Möhsün Nəvvab bu məhəllədə ya-

şayıblar. Sonuncunun rəhbərliyi ilə Şuşada "Məclisi-Fəramuşan" ("Unudulmuşların məclisi") ədəbi məclisi fəaliyyət göstərmişdir. Mir Möhsün Nəvvab isə Şuşada qiraətxana, "üsuli-cədid" məktəbi, mətbəə və cildxana açmış, Qarabağ şairlərindən bəhs edən "Təzkireyi-Nəvvab" adlı məşhur əsər (1943 ildə Bakıda nəşr olunmuşdur) yazmışdır. Onun Şuşada Böyük məscidin, həmçinin öz evinin və dərs dediyi məktəbin divarlarında çəkdiyi rəsmlər ornamental boyakarlığın gözəl nümunələrindən olmaqla, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda tətbiqi incəsənətin inkişafında əhəmiyyətli rol oynamışdır.



Tarzən Sadıqcan və onun evi

Şuşada "şairlər ailəsi" adlandırılan Əsəd bəy Qasım bəy oğlunun Hacı Yusifli məhəlləsində böyük və dəbdəbəli sarayı olmuşdur. "Xaneyi Əsəd" adlandırılan bu saray yerli poeziya həvəskarlarının toplanış yeri idi. "Məclisi-üns"ün, "Məclisi-fəramuşan"ın üzvləri də vaxtaşırı bu evdə şeir məclislərində iştirak edirdilər. M.M.Nəvvab "Təzkireyi-Nəvvab" əsərində Əsəd bəy Vəzirovun övladı Bəhram bəyi (Qasım bəy Zakirin nəvəsi) "Əxlaqca əvəzsiz bir şəxs" adlandırmış, onun 14 qəzəlini, 3 rübaisini vermişdir. Şairin təxəllüsü "Fədai" (özünü inam yolunda qurban verən) olmuş-

dur (**Vasif Quliyev. Burdan bir atlı keçdi... B., "Şuşa" nəşriyyatı, 2017, səh. 32-34**).

Müasir Azərbaycan tarının yaradıcısı, məşhur tarzən Mirzə Sadıq Əsədoğlu (xalq arasında sevilərək *Sadıqcan* çağırılmışdır) da Hacı Yusifli məhəlləsindən idi. O, tarın quruluşunu dəyişmiş, xalq musiqisinin və muğamatın xüsusiyyətlərini nəzərə alaraq, onun səs düzümünü yeni qaydada tənzimləmiş, ifaçılıq üslubunu təkmilləşdirmişdir.

Sadıqcan virtioz tarzən kimi Cənubi Qafqazda, Orta Asiyada və İranda da geniş şöhrət qazanmışdı. Onun rəhbərliyi ilə Şuşada xalq çalğı alətləri ansamblı təşkil olunmuşdu.

Bəstəkar və musiqişünas Əfrasiyab Bədəlbəyli Sadıqcanın gördüyü işləri yüksək qiymətləndirərək yazır: "... *Sadıqcandan başlayaraq Azərbaycan muğamatının mahiyyəti, onun ifadə vasitələri, təsir qüvvəsi və ifaçılıq üslubu yeni bir pilləyə qalxmış oldu. Mirzə Sadıq Azərbaycan musiqisi tarixində yeni səhifə açdı*" (**Sitat Teymur Bünyadov. Musiqi alətləri və ifaçılar. Azərbaycan etnoqrafiyası 3 cilddə, c.3, B., "Şərq-Qərb", 2007, səh. 237. kitabından götürülmüşdür).**



Məhəllənin məscidi və bulağı

# Çölqala məhəlləsi

Şuşanın "Aşağı məhəllə" hissəsindədir. Tarixdən məlumdur ki, XVIII yüzildə Şuşa (*Pənahabad*) şəhəri möhtəşəm qala divarları ilə əhatə olunduqdan sonra, qala divarlarının çöl hissəsində də xeyli ailə məskən salmışdı. Bu səbəbdən yeni məhəllə Qala əhalisi tərəfindən *Çölqala*, sakinləri isə *çölqalalılar* – yəni "qaladan kənarda yaşayanlar" adlandırılırdı.



Qısa müddətdə məhəllə küçələri boyunca varlılara məxsus yaraşıqlı evlər, inzibati və dini binalar, dükanlar inşa edilmiş, ticarət mərkəzi fəaliyyətə başlamış, çoxlu bağlar, yaşıllıqlar salınmışdı. Əhalinin etibarlı qala divarları ilə qorunan bu ərazidə yaşamaq istəyi binaların sıx yerləşməsini şərtləndirmişdi. Məhəllə su ilə təchiz edilmiş, kanalizasiya sistemi yaradılmışdı. Çölqala məscidinin (XVIII əsr) qarşı tərəfində –

açıq meydanda şirin sulu bulaq (bulaq Şuşanın xeyriyyəçi şəxsiyyətlərindən olan Hacı Nəsir Rza oğlu tərəfindən 1889-cu ildə tikdirilib) və hamam vardı. Qala divarlarına ən yaxın ərazidə Xurşidbanu Natəvanın sarayı, Əsəd bəy Cavanşirin saray kompleksi, Xan Şuşinskinin evi, Üzeyir bəy Hacıbəylinin ata yurdu yerləşirdi.



Tacir Məşədi Tağının evi

"Çölqala" məhəlləsində Azərbaycan musiqi mədəniyyəti tarixində böyük xidmətləri olan simalardan biri – Məşədi Cəmil Əmirov (məşhur bəstəkar Fikrət Əmirovun atası) iki otaqlı ev tikdirmişdi. Güclü və məlahətli səsi olan, Şərq və Azərbaycan muğam və təsniflərini dərindən bilən Hacı Hüsü Neftalı oğlu da bu məhəllədə – papaqçı ailəsində doğulub böyümüşdü. O, Mir Möhsün Nəvvabla birgə Şuşada ilk "Musiqiçilər məclisi"-nin əsasını qoymuş, Qarabağ muğam ifaçılığı sənətinin qorunması, öyrənilməsi və gənc nəslə ötürülməsi işində mühüm rol oynamışdır.

Hacı Hüsü Şuşa musiqi məktəbinin yaradıcısı məşhur muğam bilicisi Xarrat Qulunun ölümündən sonra gənc xanəndələr yetişdirmək məqsədilə "Xanəndələr ittifaqı" təşkil etmişdi.



Məşədi Cəmil Əmirov



Hacı Hüsü

Hacı Hüsü musiqi aləmində "Qatar" muğamının yaradıcısı sayılır. O, məclislərdə zil və incə səsi ilə hamını heyran qoyurdu. Deyilənə görə, xanəndənin səsi elə qüvvətli və cazibəli idi ki, hər muğamı oxumağa başlayanda tarın bütün pərdələrini gəzib, son pərdədən bir qədər də zilə qalxırdı. Xüsusilə də *"Orta mahur"u oxuyanda bütün musiqiçiləri heyrətdə qoyurdu* **(Cabbar Qaryağdı oğlu)**.

# Qazançılı məhəlləsi

Şəhərin Qərb və Yuxarı hissəsini əhatə edən, dağlıq ərazidə salınmış ən iri məhəllələrdən biridir. Mənbələrin yazdığına görə, məhəllənin adı Naxçıvanın Ordubad bölgəsində – Əylisli çayının sahilində, Zəngəzur silsiləsinin yamacında yerləşən Qazançı kəndindən köçüb gəlmiş *Qazançı* tayfasının adı ilə bağlıdır. Bəzi tədqiqatçıların fikrincə, etnonim türkdilli *bulqarların* kazan (qazan) tayfasının adını əks etdirir. Bu tayfa bulqarların tərkibində Cənubi Qafqaza gəlmiş, eramızın ilk əsrlərində hunların, sonra suvar və avarların, daha sonralar isə xəzərlərin tərkibində Azərbaycanda məskunlaşmışlar. XIX əsrin sonlarında bütün Qafqazda "qazan" tərkibli 24 toponim və hidronim qeydə alınmışdır. Müasir Azərbaycan Respublikası ərazisində tarixən "Qazançı" adlı 10 kənd mövcud olmuşdur. Hazırda isə ölkəmizdə üç "Qazan", dörd "Qazançı" oykonimi, dörd "Qazan" oronimi, üç "Qazan" hidronimi məlumdur. Ümumiyyətlə, "Qazan" etnonimi ilə əlaqədar yer-yurd adları bütün Türk dünyasında geniş yayılmışdır (**Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, 2 clddə, c. 2, B, 2007, səh. 46**).



# Xanlıq məhəlləsi

Şuşanın "Yuxarı məhəllə" hissəsində olub, hər tərəfdən daş hasarla əhatələnmişdi. "Əhvalati Qarabağ" əsərinin müəllifi M.Baharlıya görə, məhəllənin əsl adı "Mir" (Baş məhəllə) olmuşdur. Qarabağ xanı İbrahimxəlil xanın hakimiyyəti dövründə ona məxsus imarətlərin yaxınlığında salınan "əvvəlinci", yəni ilk məhəllə olduğu üçün ona *Xanlıq ara* da deyərdilər. *Bu səbəbdən "Xanlıq ara" deyilir ki, İbrahimxəlil xanın imarətinin yanıdır* (**M.Baharlı. "Əhvalati-Qarabağ", "Qarabağnamələr", II kitab, B., 1991, səh.277**).



Xan malikanəsi

Ərazidə "Xan sarayı" kompleksinə aid müxtəlif xidməti tikililər mövcud idi. Rzaqulu bəy Mirzə Camal oğlunun yazdığına görə, *"Qalanın bir ağaclığında Xan bağı imarətləri, həmçinin tövlələr, bağlar, buzxanalar, dəyirmanlar və arxlar vardı. Yaxşı at və qəşəng ilxı saxlardı. Cins ayğırlardan başqa 3500 və bəlkə daha çox doğar madyan atı vardı. ... Burada İbrahim xana məxsus böyük bir zorxana da tikilmişdir. Xan vaxtının çoxunu burda keçirirdi* (**Rzaqulu bəy Mirzəcamal oğlu, Pənah xan və İbrahimxanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri. "Qarabağnamələr" II kitab, B., 1991, səh. 292-293**).





Xanlıq Muxtarın karvansarası

Qeyd olunan zorxanada (igidlik, bahadırlıq məkanında) bilək, qol gücü ilə müxtəlif idman növlərinin sirləri öyrədilirdi. Burada gələcək hərbçilərin sağlamlığını, fiziki bacarığını, iradəsini qorumaq məqsədilə məşq-yarışlar da keçirilir, xüsusi cəsarəti, dözümü olan təmkinli pəhləvanlar hazırlanırdı (**T.A.Babayev. Bahadırlar yurdu, B., 2020, səh.121**).

M.Baharlı zorxana pəhləvanları barədə məlumat verərkən yazır: *"Şuşanın*

*"Dördlər Qurdu" məhəlləsində pəhləvan Nabat və pəhləvan Seyid Həsən var idi. Onlar çox zorlu və güləşkən idilər. Nə igidlikdə, nə cəsarətdə, nə də şücaətdə onların qabağına çıxacaq, rəqabət aparacaq adam yox idi. Öz vaxtında olan pəhləvanlar ki, Şəkidən, Təbrizdən və Badkubədən gəliblər, onların kürəyini yerə vura bilməmişdi... Yenə bir nəfər pəhləvan Çuxur məhəlləsində olubdur və onun adı pəhləvan Məhəmməd idi. Bu da çox görkəmli, şücaətli və tənümənd adam olmuşdur..."* (**Baharlı, Göstərilən əsəri, səh. 301-302**)




Zorxana oyun tamaşası

Yazıçı, tarixçi-etnoqraf Yusif Vəzir Çəmənzəminlinin "İki od arasında" romanında Şuşada geniş yayılan zorxanaların və zorxana oyunlarının ətraflı təsviri verilmişdir.

## Saatlı məhəlləsi

Şuşanın "Yuxarı məhəllə" hissəsindədir. Məhəllənin adı XVIII yüzilliyin axırlarında Qarabağda yurd salmış türkdilli *Saatlı* tayfasının adındandır. Tədqiqatçılara görə, etnonimin özü XIV yüzilliyin ortalarında Çuxursəəd (Azərbaycan



Səfəvilər dövlətinin inzibati vahidlərindən biri) vilayətinin hakimi Əmir Saadın adı ilə bağlıdır. Tayfa Arpaçayın aşağı axarı və Arazın sol sahili ərazilərində yaşamışdır. 1431-ci ildə Qaraqoyunlu hökmdarı Qara İsgəndər "saadlılar"ın hökmranlığına son qoyduqdan sonra onlar səpələnmiş, bir hissəsi Qazax bölgəsində, digər hissəsi isə Qarabağda məskunlaşmışdır (**Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. 2 cilddə, 2 c., B., 2007, səh. 168**).



Məhəllənin məscidi

Azərbaycan tarixçisi, Qarabağ xanlarının nəslindən olan Əhməd bəy Cavanşir yazır ki, Pənahəli xanın hakimiyyəti dövründə, 1795-1797-ci illərdə Ağa Məhəmməd şah Qacarın hücumları ilə əlaqədar olaraq, Gürcüstandan və qonşu

xanlıqlardan "Saatlı" tayfasına məxsus 17 ailə Qarabağ ərazisinə köçərək, dik yamac üzərində məskən salmışlar (**Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair. "Qarabağnamələr", I kitab, B., 1989, səh.160**).

Məhəllə bir-iki mərtəbəli evlərdən ibarət idi. Buradakı "Saatlı məscidi", "Saatlı hamamı", "Saatlı bulağı" və s. məhz məhəllənin adından qaynaqlanmışdır. Memarlığı və dekorativ tərtibatı ilə Şuşanın digər məscidlərindən seçilən "Saatlı məscidi" 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında inşa edilmişdir. Məhəllə meydanının aşağı hissəsində hamar ağ saf daşla tikilmiş şirin sulu bulaq da varmış. Bulaq 1873-cü ildə xan qızı Xurşudbanu Natəvanın Sarı baba dağından Şuşa qalasına çəkdirdiyi su kəməri ilə təchiz olunurmuş (**Yunis Hüseynov, Şuşa salnaməsi. B., 2015, səh.36**).



Molla Pənah Vaqifin büstünün açılışı

Qarabağ xanlığının baş vəziri, şair Molla Pənah Vaqif bu məhəllədə yaşamış, buradakı məsciddə açdığı mədrəsədə dərs demişdir.

# Mamayı məhəlləsi

Şuşanın "Yuxarı məhəllə" hissəsindədir. Məhəllənin adı XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Qarabağın Dəmirçihəsənli mahalının Mamayı və Xoavənd obalarından köçüb gəlmiş türkdilli *Mamayı* nəslinin məskunlaşması ilə yaran-



mışdır. Bu nəslin başçısı Mamayı bəy Şuşada tanınmış, varlı bir nəslin nümayəndəsi idi. Tədqiqatçı Elçin Əhmədovun dediyinə görə, Mamayı bəy xatirələrdə elin qeyrətini çəkən, məhəllənin xeyir-şərində yaxından iştirak edən, kimsədən yardımını əsirgəməyən ağsaqqal kimi qalmışdır. O, məhəllənin abadlığı üçün də çox işlər görmüşdür. "Məmai" təxəllüsü ilə şeirlər yazmış, X.B.Natəvanın başçılıq etdiyi "Məclisi-üns" ədəbi məclisinin üzvü olmuşdur. Yüksək nüfuz və mənsəb sahibi olduğu üçün yaşadığı məhəlləyə onun adı verilmiş və bu ad tarixi qaynaqlarda da öz əksini tapmışdır.



Mir Möhsün Nəvvab və onun ikimərtəbəli evi

Ədəbiyyatşünas, rəssam və musiqişünas M.M.Nəvvabın ikimərtəbəli evi (ev ermənilər tərəfindən vəhşicəsinə dağıdılmış və 2023-cü ildə bərpa olunmuşdur), Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin baş katibi, müəllim və ictimai xadim Rza bəy Qaraşarlının mülkü, bir sıra tarixi memarlıq abidələri də bu məhəllədə yerləşirdi. Məhəllədəki ikimərtəbəli "Mamayı məscidi" (2-ci mərtəbədə qadınların ibadəti üçün xüsusi bölməsi olmuşdur), "Mamayı bulağı",

"Mamayı hamamı" məhəllənin adından qaynaqlanmışdır. Mamayı bəy özü İran, Türkiyə və Rusiyanın bir sıra şəhərləri ilə ticarət əlaqələri saxlayırdı. 1910-cu ildə şuşalı Cavanşirov adlı xeyriyyəçi şəhərin müsəlmanlar yaşayan məhəlləsinə üçüncü su kəməri çəkdirir və bu kəmər Mamayi bəyin şərəfinə "Mamayı bulağı" adlandırılır.



Mamayı bulağı

Qeyd edək ki, hazırda Qəbələ rayonu ərazisində *Mamaylı* adlı kənd vardır.

# Köçərli məhəlləsi

Şuşanın "Yuxarı məhəllə" hissəsindədir. Artıq qeyd etdiyimiz kimi, XVIII yüzilin sonu – XIX yüzilliyin əvvəllərində İbrahimxəlil xan Qarabağın hər tərəfindən bir çox elləri, o cümlədən Cavanşir mahalının 52 ailədən ibarət Köçərli elini köçürüb qalada yerləşdirmişdi (**Baharlı M. "Əhvalati-Qarabağ", "Qarabağnamələr", II kitab, B., 1191, səh. 276-277**). Görkəmli ədəbiyyatşü-



nas, tənqidçi və pedaqoq Firidun bəy Köçərlinin də əsli "Köçərli" elindəndir. O doğulduğu məhəllənin adını özünə soyad qəbul etmişdir. Böyük ziyalının ulu babası Məhəmməd bəy Köçərli öz eli ilə birlikdə Şuşaya gəlmiş, burada yurd-yuva salmış və nəticədə *Köçərli məhəlləsi* yaranmışdır.



Firidun bəy Köçərli və onun evi

Saatlı məhəlləsindən sol tərəfdə – dik yamac üzərində yerləşən Köçərli məhəlləsində şəhərin mərkəzinə doğru uzanan, nisbətən enli yolun hər iki tərəfində yaşayış evləri, məscid, hamam, bulaq, bir qədər aşağı hissədə isə körpü ("Şahlıq körpüsü" adlanırdı) və meydança olmuşdur. Məhəllənin bir-birindən fərqlənən yaşayış evləri əsasən bir-iki mərtəbəli idi (**Yunis Hüseynov. Şuşa salnaməsi, B., 2015, səh. 36**).

Tədqiqatçılara görə qədim türk tayfalarından olan *köçərli* tayfası mənşəcə ***koçarlara*** mənsubdur. Uyğurların tərkibinə daxil olan koçarların adına VIII-IX əsrlərə aid ***Küçar*** adlı uyğur şəhərinin adında da rast gəlinir. XIX əsrdə indiki Ermənistan ərazisində "Köçərli" adlı yaşayış məntəqəsi qeydə alınmışdır (**Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, 2 clddə, 1 c., B., 2007, səh. 288**).

Məhəllədə yaşayanların böyük bir qismi də Vəzirovlar nəslindən olan ailələr olmuşdur. Köhnə hamamın üst hissəsində görkəmli yazıçı, dramaturq Nəcəf bəy Vəzirov, bir az aralıda Camal bəy Vəzirov və Hacıbəy Vəzirovun ailələri yaşamışdır. Türkiyədə *Koçarlı* adında şəhər mövcuddur.



Məhəllənin məscidi və bulağı

# Xoca Mərcanlı məhəlləsi



Şuşanın "Yuxarı məhəllə" hissəsində yerləşib, Qarabağın Mərcanlı kəndindən gələn qədim türkdilli tayfa və nəslin adı ilə adlanır. Məhəllə şəhərin mərkəzi hissəsində yerləşirdi. XIX yüzilliyə aid qaynaqlardan məlum olur ki, Qarabağ xanı İbrahimxəlil xan Muğanlı nəslini Cəbrayıl qəzasının Mərcanlı kəndindən Bərdəyə köçürdükdən bir müddət sonra, onların bir qrupu Şuşaya gəlir və şəhərin bu yerini özləri üçün yaşayış yeri seçirlər. Məhəlləni Mərcanlı nəslinə mənsub və başçısı "Xo-

ca" (həyat təcrübəsi, məsləhəti, uzaqgörənliyi ilə seçilən ağsaqqal) olan ailələr saldığına görə *Xoca Mərcanlı* adlanmışdır. Görkəmli tarixçi Fəzlullah Rəşiddinə (1247-1318) görə "türk dilində yaşlı adamlara xoca/qoca deyirlər, belə ki, "xoca" sözü nə ərəb, nə fars sözü olmayıb... əslində türk sözüdür" ("Oğuz-



Hacı Qulunun imarətinin qalıqları

namə". B., 1987, s. 32). "Kitabi-Dədə Qorqud"da qoca/xoca titulu dünyagörmüş, təcrübəli adamlara verilirdi, onlar eyni zamanda nüfuzlu, qorxmaz,

qətiyyətli şəxslər olmuşdur. Burada XIX əsrdə Hacı Qulunun milli üslubda inşa edilmiş 3 mərtəbəli, 46 otaqdan və 2 zaldan ibarət imarəti varmış. 1865-ci ildə Şuşada olmuş görkəmli rus rəssamı V.V.Vereşşaginin "Şuşada müsəlmanların dini mərasimi" kompozisiyasında həmin zallardan biri təsvir olunmuşdur.

Ümumiyyətlə, V.V.Vereşşaginin Azərbaycan xalqının həyat və məişətini, memarlıq abidələrini əks etdirən rəsmləri, həmçinin Azərbaycan xalqı və şəhərləri haqqında maraqlı yazıları var.



İmarətin otaqlarından biri (V.V.Vereşşagin)

Ərazidəki "Xoca Mərcanlı məscidi", "Xoca Mərcanlı hamamı", "Xoca Mərcanlı bulağı" da məhəllənin adından qaynaqlanmışdır. Burada həmçinin, "Xoca

Mərcanlı şəfa ocağı" (pir) deyilən ziyarətgah və Hacı Hüseyn karvansarası mövcud olmuşdur. Məlumata görə, Karvansaranı Qarabağın çox dövlətli və varlı tacirlərindən biri, şəhərdə onlarca dükanı olan "Sail" təxəllüslü şair Hacı Hüseyn Mir Səyyaf oğlu Hüseynzadə tikdirmişdir.

Cəbrayıl rayonu ərazisində *Mərcanlı* etnonimi ilə bağlı Böyük Mərcanlı və Cocuq Mərcanlı adında kəndlər vardır.



Hacı Qulunun imarətindən görüntü

# Dəmirçilər məhəlləsi

Şuşanın "Yuxarı məhəllə" hissəsindədir. Məhəllə əski çağlardan dəmirçiliklə məşğul olan türkdilli tayfaların adı ilə bağlıdır. Qızılbaş tayfaları sırasında adları çəkilən *dəmirçilər* XVI yüzillikdə Türkiyənin Qars şəhəri ətrafında yaşamışlar. Azərbaycan tarixçisi Əhməd bəy Cavanşir yazır ki, Qacarın hücumları ilə əlaqədar onların çoxu Pənahəli xanın hakimiyyəti dövründə Gürcüstandan və qonşu xanlıqların ərazisindən Qarabağa gəlmiş *Dəmirçi Həsənli* tayfasındandır **(Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1748-1805-ci illərdə siyasi vəziyyətinə dair, "Qarabağnamələr", I kitab, 1989, səh. 160).**



Dəmirçilər və "Şeytanbazarı" ətrafında yaşayıb-işləyirdilər. Köklü şuşalıların dediyinə görə, məhəllə sakinlərinin əksəriyyətinin dəmirçilik və silahqayırma emalatxanaları olmuş, onların gündəlik gəlir mənbəyini məhz bu sənət sahələri təşkil etmişdir. Dəmirçixanalar ustaların evlərinin yanında yerləşmişdir. Onlar sifarişləri burada qəbul edir və burada da yerinə yetirirdilər. Dəmirçixanalar həm istehsal emalatxanası, həm də satış dükanı rolunu oynayırdı. Digər məhəllələr kimi, bu məhəllədə də məscid, hamam, bulaq və kiçik meydan olmuşdur.



Dəmirçi emalatxanası

# Hamamqabağı məhəlləsi

Şuşanın "Yuxarı məhəllə" hissəsindədir. XVIII əsrin sonları – XIX əsrin əvvəllərində salınmış bu məhəllə şəhərin mərkəzində yerləşirdi. Qala şəhər kimi inkişaf etməyə başlayan vaxt İbrahimxəlil xanın əmisi oğlu Əbdüssəməd bəy Cavanşir burada hamam tikdirmiş, ətrafında və qarşısında çoxlu yaşayış evləri inşa etdirmiş, nəticədə böyük bir məhəllə yaranmışdı. "Əhvalati-Qarabağ" əsərinin müəllifi M.Baharlıya görə, *"Əvvəl bu qalada hamam tikdirən Əbdüssəməd bəy yaşamışdır. O, dövrünün çox imkanlı və həm də xeyriyyəçisi kimi tanınmışdır. Qarabağ xanı İbrahimxəlil xanın hakimiyyəti dövründə Əbdüssəməd bəyin mənsub olduğu soyun bir çox nümayəndəsi buraya köçərək, hamam ətrafında yaşayış evləri inşa edib məskən salmışlar. Elə buna görə o yerə* Hamamqabağı *deyiblər.* Məhəllə el arasında *Hamamarası məhəllə, Əbdüssəməd bəy hamamı* adı ilə də tanınmışdır. Məhəllədə həmçinin, məscid, bulaq, çirkab suların axıdıldığı dibsiz su quyuları olmuşdur **("Qarabağnamələr", II kitab, B., 1991, səh. 277)**.



# Təzə məhəllə

Şuşanın "Yuxarı məhəllə" hissəsindədir. XIX yüzillikdə şəhər ərazisi onun coğrafi vəziyyətinə uyğun genişləndikcə və əhalisi artdıqca, daha bir məhəllə salınmış və sonuncu salındığına görə, *Təzə məhəllə* adlandırılmışdır. XVIII yüzillikdə salınmış "Aşağı məhəllə"nin "Dörd çinar" məhəlləsi də kiçik olduğundan, bu məhəllə ilə birləşdirilmişdir.

Təzə məhəllənin tarixi cəlbedici hadisələrlə zəngindir. Belə ki, Azərbaycanın tanınmış nəsillərindən olan Mehmandarovların burada yerləşən mülkünün qarabağlı memar Kərbəlayi Səfixan tərəfindən inşası, nəslin nümayəndələrinin kəşməkəşli həyat yolu, onların xalqımızın mədəni-məişət həyatında iştirakı və



başqa bu kimi maraq doğuran hadisələr məhz bu məhəllə ilə bağlıdır. Elə bu maraq bizi tanınmış yazıçı, jurnalist Vasif Quliyevin "Mehmandarovlar" kitabındakı bəzi epizodları qısa şəkildə oxucularımıza çatdırmağa sövq etdi. Müəllif yazır: "*...Qarabağ hakimi İbrahimxəlil xan Cavanşir və oğlu Mehdiqulu xanın hakimiyyətləri dövründə xanlığın mehmandarı* (Azərbaycan xanlıqlarının, o cümlədən, Qarabağ xanlığının idarəetmə sistemində bir çox mülki və hərbi vəzifələri yerinə yetirən saray məmurları vardı. Həmin mülki vəzifələrdən biri də "mehmandar" adlanırdı. Bu sözün mənası "qonaqpərvər", "qonaqsevər" deməkdir)



Mehmandarovların imarəti (usta Qəmbər Qarabağinin tərtibatı)

*Əli adlı bir şəxs idi. Savadlı olduğuna görə lap gəncliyindən ona "mirzə", sonralar isə İbrahimxəlil xan Cavanşirin fərmanı ilə "bəy" titulu verilmişdi. Sarayda böyük hörmət və izzət sahibi olan Mirzə Əli bəyin insani keyfiyyətlərinin mənası saraydakı vəzifəsinin mənası ilə tamamilə uyğun gəlirdi. Yerli sakinlər və Şuşada dəfələrlə onun şəxsi qonağı olmuş müsafirlər də Mirzə Əli bəyi və onun ailə üzvlərini "mehmandar" adlandırırdılar.*



Məscidin xarici və daxili görünüşü

*XIX yüzilliyin 30-cu illərində Mirzə Əli bəyin törəmələri babalarının keçmiş vəzifəsini və el-obanın onlara verdiyi bu adı özlərinə soyad olaraq götürdülər və bütün rəsmi dövlət sənədlərində Mehmandarovlar kimi qeydə alındılar. Qarabağ xanlığının inkişafında və möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Mirzə Əli bəyə Qarabağın aran hissəsində münbit torpaqlar, "Təzə məhəllə"nin görümlü guşəsində uzunluğu otuz beş, eni isə otuz arşın olan əlavə torpaq sahəsi bağışlandı. Və bu gözəgəlimli yerdə Mirzə Əli bəy övladları üçün ev tikdirmək fikrinə düşdü. O, bu işi dövrün məşhur memarı* Kərbəlayi Səfıxanı Qarabağiyə *tapşırdı. Onun rəhbərliyi ilə yerli daşlardan ikimərtəbəli yaraşıqlı, topdağıtmaz saray nümunəsində fərdi bir yaşayış evi ucaldıldı. At tövləsi, ərzaq saxlamaq üçün zirzəmisi, mətbəxi, ailə şənliklərini keçirmək və qonaqlar üçün*

*böyük zalı, geniş həyət-bacası, bağ-bağatı olan bu imarət heç də xanzadələrin, bəyzadələrin saraylarından geri qalmırdı. Binaya sonralar köməkçi və təsərrüfat tikililəri də əlavə edildi və bura iri bir yaşayış kompleksinə çevrildi. Beləliklə, Şuşada – "Təzə məhəllə"də Qarabağ memarlığının şah əsərlərindən olan və şəhərin memarlıq simasını müəyyənləşdirən bir sənət əsəri yarandı ki, adı memarlıq tariximizə* ***Mehmandarovların imarəti*** *kimi milli memarlıq tariximizə həmişəlik yazıldı.*



Təzə məhəllə bulağı

*İmarətin daxili tərtibatı zəmanəsinin məşhur dekorativ boyakarlıq və ornament ustası, Şuşada və digər şəhərlərdə bir çox yaşayış evlərindəki müxtəlif panno və kompozisiyaların müəllifi* Usta Qəmbər Qarabağı *tərəfindən yerinə yetirilmişdir. Binanın çox gözəl rənglənmiş böyük otağının divarlarını və tavanını dahi Firdovsinin "Şahnamə" əsərinin qəhrəmanlarının şəkilləri ilə bəzənməklə, onu sanki bir sərgi salonuna çevirmişdir. Kərbəlayi Səfıxan yaşayış kompleksi ərazisində məscid də inşa etdirmiş və bu "Təzə məhəllə məscidi" adıyla məşhurlaşmışdır. Daha sonralar isə məscidə gedən yolun üstündə məhəllənin adı ilə adlandırılan şirin, saf suyu və anbarı olan bulaq da inşa etdirmişdir. Təzə məhəllə körpüsü Şuşada ən böük körpü sayılırdı"* **(Vasif Quliyev. Mehmandarovlar. B., "Şuşa" nəşriyyatı, 2019, səh. 12-14)**. İşğal dövründə ermənilər tərəfindən vəhşicəsinə dağıdılmış "Mehmandarovların imarəti" memarlıq kompleksi 2023-cü ildə yenidən bərpa olunmuşdur.

* * *

Qarabağ xanlığı Rusiya İmperiyasına ilhaq edildikdən sonra (1805) Şuşa yaylasının yuxarı qərb hissəsində quruculuq işlərinə başlanılmış və bu, bütün XIX əsr ərzində davam etmişdir. Yüksək inkişaf səviyyəsinə çatan Şuşa bu dövrdə artıq Cənubi Qafqazın ən iri şəhərlərindən birinə çevrilmişdi. Mirzə Yusif Qarabaği "Tarixi-Safi" əsərində şəhərin qərb hissəsində salınan *Mehrili, Qazançılı, Əylisli, Dərə, Çiləbörd, Bağlar* və başqa məhəllələrlə yanaşı, Şuşanın on iki küçədən ibarət olan və ən çox əhali yaşayan bu məhəlləsinin də adını çəkmişdir **(Mirzə Yusif Qarabaği. "Tarixi-Safı", "Qarabağnamələr". II kitab, B., 1991, səh.19).**

Beləliklə, Qarabağ xanlığının Şuşada həyata keçirilən geniş, çoxtərəfli quruculuq işləri nəticəsində burada salınan "məhəllələrin formalaşması tarixi əslində Şuşa şəhərinin yaranması və inkişafı tarixini tam aydınlıqla əks etdirir"

(**Yaqub Mahmudov, Camal Mustafayev. Şuşa – Pənahabad, B., 2020, səh.35**).

Tədqiqatçı E.Avalovun fikrincə, digər Şərq ölkələrində olduğu kimi, Şuşa üçün də məhəllələrdə qapalı ev təsərrüfatının mövcudluğu xarakterik idi. Belə ki, hər bir ev təsərrüfatının kiçik bağı olur və evlər qonşulardan və küçələrdən daş divarlarla ayrılırdı. Ev təsərrüfatının malikanə xarakteri Şuşanı bir növ şəhər-bağa daha çox oxşadırdı ki, bu da tədqiqatçıları və səyahətçiləri heyran edirdi. Yaşıllığın çoxluğu, yaşayış sahələrinin gül-çiçəklərlə, hər cür ağaclarla dolu mənzərəsi şəhər sakinlərinin estetik tələblərinə cavab verirdi **(E.A.Avalov, səh. 43)**.




İsa bulağı



Şor bulaq

Artıq qeyd etdiyimiz kimi, Qarabağ xanlığının təməlini qoyan Pənahəli xanın və onun oğlu İbrahimxəlil xanın hakimiyyəti illərində 17 məhəllədən ibarət olan qalanın hər bir məhəlləsində əhalinin suya tələbatını təmin etmək məqsədi ilə su quyuları qazılır, arxlar, tünglərdən quraşdırılmış su kəmərləri çəkilir, ovdanlar inşa edilirdi. Küçə və məhəllələrin, binaların, müxtəlif tikililərin təmizliyinə diqqət yetirilirdi. Çirkli suları şəhərdən axıtmaq üçün sanitariya-gigiyena təyinatlı xüsusi qurğular – *kanalizasiya şəbəkəsi, zibil quyuları* düzəldirdilər ki, bu da məhəllələrin abadlığının dövrünə görə, kifayət qədər yüksək səviyyədə olduğundan xəbər verirdi.

Bundan əlavə, hər məhəllənin diş göynədən, şirin və bol sulu *bulaqları* vardı. Dağlarımızın şah damarlarından axıb gələn bu bulaqları əməli uca xeyriyyəçilər zaman-zaman təmir etdirib yaşadıblar. El adətinə görə, hər məhəllənin sakinləri öz bulağını, çeşməsini səliqə-sahmanlı saxlayırdılar. Bulaqların tutulmuş gözünü açıb təmizləyir, su yolunu genəldir, yan-yörəsini abadlaşdırır, bərpa işləri aparır və s. bu kimi xeyirxah işlər görürdülər. Çünki su müqəddəsdir, su paklıq, saflıq, təmizlik nişanəsidir.



Şuşa hamamı

Şuşa məhəlləri-

nin əsas struktur ünsürlərindən biri də *hamamlar* idi. Digər orta əsr Azərbaycan şəhərləri kimi, Şuşada da hər məhəllənin öz hamamı var idi. Hamam çimmək, pak olmaq, sanitariya-gigiyena yeri olmaqla yanaşı, eyni zamanda istirahət, söhbət, rahatlıq, görüş yeri və mərasimlər məkanı olmuşdur. Buna görə də onların hamısı şirin su ilə təmin olunurdu. Həftənin müəyyən günləri hamamlar qadınlara, müəyyən günləri isə kişilərə xidmət göstərirdi. Şuşalı ağbirçəklərin söylədiyinə görə, qadınlar üçün "hamam günü" sanki həyatlarının ən maraqlı günü olurdu. Onlar burada tanış-bilişləri ilə rastlaşır, söhbət edir, necə deyərlər "dağı arana, aranı dağa daşıyar", hətta xırda-xuruş alver də edirdilər. Yaşlı qadınlar hamamda gənc qızlara müştəri gözü ilə nəzər yetirir, bəyəndiklərini subay oğlanları üçün "gözaltı" edirdilər.

Şuşada ilk hamamı, qeyd etdiyimiz kimi, Qarabağ xanı İbrahimxəlil xanın əmisi oğlu Əbdül Səməd bəy *Hamamqabağı məhəlləsində* xeyriyyə məqsədilə tikdirmişdi.

17 məhəllənin hər birinin ayrı-ayrılıqda *məscidi* olmuşdur. Bunlardan əlavə, şəhərdə möhtəşəm memarlıq kompozisiyasına malik *Yuxarı Gövhərağa* və *Aşağı Gövhərağa* kimi cümə məscidləri də fəaliyyət göstərmişdir. Aşağı Gövhərağa məscidi şə-


Yuxarı Gövhərağa məscidi

hərin yuxarı hissəsində – şəhərin ən mənzərəli və abad yerində ucaldılmış möhtəşəm memarlıq abidəsidir.

Yazılı qaynaqlardan bəlli olur ki, Cümə məscidlərinin nəzdində məktəb və mədrəsələr də fəaliyyət göstərirdi. Bu məktəblərdə dini və dünyəvi elmlərlə yanaşı, mədəniyyətin inkişafı, istedadların pərvəriş tapması üçün işlər görülürdü. Həm Cümə və həm də məhəllə məscidlərinin mədrəsələrində yüksək təhsil görmüş, el arasında böyük nüfuza malik tanınmış din xadimləri dərs demişlər.

Şuşanın zəngin tarixi-mədəni irsinə insanların inanc dünyası ilə bağlı olan, arzu-niyyətlərinin çin olması diləyi ilə pənah apardıqalrı pir və ziyarətgahları da aid etmək olar. Bu müqəddəs ocaqlar dərdli insanların, övladı olmayan qadınların müxtəlif xəstəliklərdən qurtulmaq istəyənlərin əsas ümid yerləri idi.

Bütövlükdə Şuşa, onun ayrı-ayrı məhəllələrindəki abidələr, ictimai və məişət xarakterli tikililər öz memarlıq üslubuna və inşaat texnikasına görə, *Arran və Qarabağ memarlıq məktəbinin* nadir sənət nümunələri sırasında özünəməxsus yer tutmaqla öz tarixi əhəmiyyətini bu gün də qoruyub saxlayır.



Aşağı Gövhərağa məscidi

# Şuşanın sənət dünyasından


Qızıl oturacaqlı büllur qədəh dəsti (Sankt-Peterburq, Ermitaj)

Şuşanın inkişaf etmiş bir şəhər kimi formalaşmasında söz yox ki, onu yurd yeri edən sənət və peşə sahiblərinin, həmçinin tacirlərin də böyük rolu olmuşdur. Ərazinin tarixi-coğrafi və iqlim şəraiti, eləcə də zəngin təbii xammal ehtiyatları burada müxtəlif ənənəvi sənət sahələrinin formalaşmasında başlıca rol oynamışdır. Təsadüfi deyil ki, XVIII-XIX əsrlərdə Şuşa nəinki Azərbaycanın, həmçinin bütün Qafqazın ən böyük sənətkarlıq-ticarət mərkələrindən biri idi. Burada *"çox böyük sənətkarlar ordusu – ipəksarıyanlar, toxucular, xalçaçılar, dəmirçilər, silahsazlar, zərgərlər, dabbağlar, bənnalar, dərzilər, çəkməçilər və başqaları şəhər əhalisinin məişət və qismən də istehsal tələbatını*


Dabbağ dükanı

*ödəməklə məşğul idilər... XVIII yüzilin sonlarınadək olan dövrdə Şuşada iki mindən çox sənətkar fəaliyyət göstərirdi"* **(Camal Mustafayev. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. B., Elm, 2002, səh.43-45)**. Dəmirçi Muxtar, Başmaqçı Məhəmməd, Dabbaq Süleyman, Dabbaq Əli, Dülgər Məhəmməd, Dəmirçi Kərbəlayi Abdulla, Dəmirçi Veyis, Zərgər Abbasqulu, Başmaqçı Rüstəm, Papaqçı Dərviş, Papaqçı Həzrət Qulu, Dərzi Yaqub, Sərrac Kərbəlayi Məmmədəli, Başmaqçı Əhməd Alp və onlarla məşhur sənət-peşə sahiblərinin adları da bundan xəbər verir.

Mənbə və elmi ədəbiyyatda Şuşadakı sənətkarlıq mühiti barədə kifayət qədər məlumat mövcud olduğundan, biz yalnız problemin etnoqrafik baxımdan maraq doğuran bəzi aspektlərinin şərhi ilə kifayətlənəcəyik.



Dulus qablar bazarı

Şəhərin bir-birindən əyri küçələrlə ayrılan sadə görünüşlü birmərtəbəli evlərindəki otaqlarda toxucu, boyaqçı, bənna, xarrat, dülgər, dərzi, papaqçı, dəmirçi-misgər, dulusçu, daşyonan, başmaqçı, zərgər, şüşəsaz, keçəçi və ya dabbağın emalatxanaları yerləşirdi. Bu emalatxanalarda süfrə, boğça, yorğanüzü,

canamaz, atlas, cecim, zərif, incə və gözəl naxışlı parçalar toxunur, "xanəylən", "tel haşiyə" kimi ipək çarşablar, kəlağayı, yaylıq, çarşab (dördqat çarşab) və s. baş örtükləri hazırlanır, qanovuz və ipək parçalardan paltar, çəpkən, arxalıq, alt və üst köynəyi, dizlik, tuman, çuxa, cübbə, xəz bürüncək istahsal edilirdi.

Əksər evlərdə adətən iki-üç, bəzən də daha çox ibtidai toxucu dəzgahı vardı. Məsələn, Məşədi Abbas Mirzə Məhəmməd oğlunun iki ədəd, Məşədi Abbas Məşədi Mehdi oğlunun iki ədəd, İbrahim Kərbəlayi Hüseyn oğlunun iki ədəd, Məşədi Məlik Dadaş oğlunun dörd ədəd toxucu dəzgahı fəaliyyət göstərirdi. Bu dəzgahlar əhalinin mədəni-məişət ehtiyaclarının ödənilməsinə xidmət edirdi. Hər ailə öz tələbatına görə ipək, yun əyirir, boyayır, xalça-palaz, dəri məmulatı hazırlayır, mahud, şal parça, "bazarı şal" toxuyurdu. Bəzi hallarda onları un, taxıl, kənd təsərrüfatı alətləri və s. dəyişirdilər.



Papaqçı dükanı

Şuşa toxucularından Qafarov Hacı Məmmədəli oğlu, İbrahim Xəlil oğlu, Məmmədqasım Zeynalabdin oğlu, Məhərrəm Qulu oğlu Paris, London, Peterburq, Moskva, Tiflis və s. şəhərlərdə keçirilən beynəlxalq sərgilərdə iştirak etmiş, zərif toxunuşlu, məişətdə geniş istifadə olunan ipək parçalara görə həmin sərgilərin yüksək mükafatına layiq görülmüşdülər. Şirəlibəy Əli oğlu və Soltan Əli qızı isə qızılı və gümüşü rəngli saplardan güləbətin tikmə üzrə böyük şöhrət qazanmışdılar (**Gülsüm Əliyeva.**

**Azərbaycanın bədii parça və tikmələri. B., Elm, 1990, səh. 124**).

Xan qızı Xurşidbanu Natəvan istedadlı rəssam olsa da, onun bədii tikmələri də məşhur idi. O, güləbətin və muncuq tikmələrlə müxtəlif məzmunda dekorativ əşyalar hazırlayırdı. Xan qızının bədii tikmələri "Gül dəftəri" adlı albomunda da əks olunmuşdur.



Xan qızı Natəvanın "Gül dəftəri"ndən

Şuşada xalça-palaz məmulatı toxuculuğu ən yüksək səviyyədə idi. Demək olar ki, bütün Şuşa evlərində xalça toxunurdu. Xalça evin, ailənin firavanlığının simvolu, var-dövlət göstəricisi sayılırdı. Tədqiqatçı Çingiz Qacarın yazdığı kimi, *Şuşada nə varlı, nə də kasıb ailələr xalçasız keçinə bilmirdi. Çünki bəhs edilən dövrdə evlərdə mebel olmadığından, ailə üzvləri və qonaqlar döşəməyə sərilmiş xalçaların üstündə bardaş quraraq otururdular. Sadə insanlar torpaq döşəməyə xalça və həsir salır, varlılar isə taxta döşəmələri əlvan naxışlı xalçalarla bəzəyir, süjetli xalçaları divarlardan asırdılar. Ev sahibinin zövqü və zən-*

*ginliyi evdəki xalçaların sayı və keyfiyyəti ilə ölçülürdü* **(Çingiz Qacar. Köhnə Şuşa. Bakı, Şərq-Qərb, 219, s.144-145).**

Burada müxtəlif növ xalça məmulatı, o cümlədən böyük və geniş otaqları döşəmək üçün "Dəst", "Xalı-gəbə" dəsti də toxunurdu. "Nəlbəki gül", "Balıq", "Dərya nur", "Xanlıq", "Ləmpə", "Malıbəyli", "Açma-yumma", "Bağçada güllər" və s. Qarabağ xalçalarının ən nəfis, ən gözəl nümunələri sayılırdı (**Gülzadə Abdulova. Qarabağ xalçaları (kataloq). B., 2013, s.**5). Xalçaçılar həm özləri, həm də bazar üçün sifarişlə xalça-palaz hazırlayırdılar. Deyilənə görə, köməkli evlərdə ayda bir xalça toxumaq mümkün idi. Evin qızı həddi-buluğa çatdımı, əli ilmədə olardı – hanaya alışar, özünə cehiz hazırlığı görərdi.



Xalça hanası

Cavan qız-gəlinlər yeni evlənənlərin otağını bəzəmək və gərdəklik üçün *Çillə şəddəsi* adlanan xovsuz xalça toxuyardılar. Bu şəddəni ortalığa sərib, üzə-

rində oyun-əyləncə göstərər, mahnı, bayatı oxuyar, bəxt falı açıb bir-birinə xoşbəxtlik diləyərdilər. Sonra xalçanı 7 gün açıq səma altında saxlayardılar ki, "ay-ulduzu görsün, diləkləri yerinə yetsin".

Hana kəsilən gün evdə, məhəllədə toy-bayram olardı. Adətə görə, şirni, noğul paylanar, şərbət verilərdi. Kimin əli bərəkətli, ayağı sayalı idisə, hanaya birinci olaraq o, əl vurardı. Gəbənin saçaqlarını toxuya-toxuya kəsər, cavan qızlar "hana mahnıları" oxuyardılar: "Bizim elin adətidir, xalça verərələr qıza".



Xanlıq xalçası



Qoçbuynuz Xanlıq xalçası

Sonra da sərib çırpar, aparıb yolda sərərdilər, üstündən adamlar, arabalar, atlılar keçib gedərdi. Daha sonra isə xalçanı aparıb bulaqda, çayda yuyardılar və ən nəhayət xalça iştifadə üçün hazır hesab edilərdi.

XIX əsrin mənbələrinə istinadən etnoqraf Tahir Şahbazov yazır ki,

"...Əsrin 70-ci illərində xalça toxuculuğu şuşalılar arasında o qədər artmışdı ki, nə xalçaların, nə də xalçaçıların sayı məlum deyildi... Xarici ölkə vətəndaşları kütləvi şəkildə qədim Şuşa xalçalarını alıb ölkədən çıxarmağa başladılar. Bəzi məlumatlara görə, həmin illərdə Şuşada illik təqribən 200.000 rubl dəyərində xalça toxunurdu" (**Tahir Şahbazov. XIX-XX əsrin əvvəllərində Şuşada xalçaçılıq sənəti və ermənilərin Şuşa xalçalarına əsassız iddiaları // Folklor. Etnoqrafiya, 01, 2023, s. 70-71**).



"Bağçada güllər" xalçası

Qarabağ xalçaları yüksək estetik dəyərə malik sənətkarlıq nümunəsi kimi təkcə Azərbaycanda deyil, xaricdə – Yaxın və Orta Şərqdə, Rusiya və Avropada yaxşı tanınmış, dünyanın məşhur İstanbul, Moskva, London, Varşava, Berlin, Drezden, Roma, Budapeşt, Paris, Sankt-Peterburq, Nyu-York muzeylərinin,

şəxsi kolleksiyalarının bəzəyinə çevrilmiş, beynəlxalq sərgilərdə nümayiş etdirilmişdir. Bu gün Milli Azərbaycan Tarixi Muzeyinin zəngin ekspoziyasında bədii, üslub və texniki cəhətdən yüksək səviyyəli Şuşa xalçaları da yer almaqdadır.


Namazlıq xalça


Bizim elin adətidir, xalça verərlər qıza

Şəhərin toxuculuq emalatxanalarının nəzdində xüsusi *boyaqxanalar* fəaliyyət göstərir və bu boyaqxanalarda təbii boyaqlardan istifadə edilirdi. Ev boyaqxanaları da geniş yayılmışdı. Belə ki, toxucuların əksəriyyəti çox vaxt məmulatın boyadılması ilə özləri məşğul olsalar da, çətin alınan rəngləri (küp boyağı) əldə etmək üçün mütləq boyaqxanalara üz tutardılar.

Şuşa şəhərinin məişətində *dəmirçilik* də geniş yayılan sənət sahələrindən idi. Xüsusilə də Dəmirçilər məhəlləsinin mahir ustaları adla tanınırdı. Onlar təsərrüfatda, sənətkarlıqda, tikintidə, hərb sənətində və məişətdə istifadə edilən

çoxçeşidli dəmir alət və əşyaları (yaba, bel, nal, bıçaq, xəncər, mıx, araba təkəri və s.) məhz öz emalatxanalarında düzəldirdilər.



Dəmirçi emalatxanası

*Daşişləmə* də belə sənət sahələrindən idi. Bu günə qədər qalmaqda davam edən Şuşa qala divarlarının, tarixi memarlıq və xatirə abidələrinin, imarətlərinin və s. qalıqları bu sənət sahəsinin yüksək inkişafından xəbər verir. Yerli daş ustaları daşın emalı – kəsilməsi, yonulması və s.-də müxtəlif texniki üsullardan istifadə edərək sadə və mürəkkəb quruluşda daş məmulatı hazırlayırdılar. İnşaat işlərində də çox vaxt yerli daş karxanalarından gətirilmiş daşdan və əhəngdən istifadə edilirdi. Evlərin divarları adətən ağ daşla üzlənir, bəzən də yonma daşlarla bəzədilirdi.

*Ağacişləmə.* Şuşa və onun ətrafının zəngin və bol meşə materialı tarixən burada *ağacişləmə* sənətinin inkişafı üçün əlverişli şərait yaratmış və bu sənətin ustalarının (xarrat, dülgər, qundaqsaz və s.) yetişməsinə səbəb olmuşdur. Şuşalı ustalar binaların dam örtüyünün, döşəmə və qapı-pəncərələrinin hazırlanmasında yerli ağac



Musiqi alətləri ustası

materiallarından gen-bol istifadə edirdilər. Görkəmli musiqiçilər – Xarrat Qulu və Sadıq Əsəd oğlu (Sadıqcan) həm də ağac materialından musiqi alətləri düzəldən tanınmış ustalar idilər. Bu sahədə M.M.Nəvvab, Hacı Nəcəf bəy, tarzən Ələsgər və başqalarının da böyük xidmətləri olmuşdur (**A.Mustafayev. Azərbaycanda sənətkarlıq. B., 1999, s. 158**).





Ay-ulduz asma (XIX əsr) kəmər (XIX əsr)

*Zərgərlik.* Şuşada qızıl, gümüş bəzək məmulatı hazırlayan məşhur zərgərlər fəaliyyət göstərmişdir. Zərgərlik məmulatı arasında baş, boyun, qol-bilək, sinə, barmaq, geyim bəzəkləri üstünlük təşkil edirdi. XIX əsrdə Şuşada zərgər dükanlarının sayı 20-yə, orada çalışanların sayı isə 56 nəfərə çatmışdı. Şəhərdə başda zərgər Abbasqulu olmaqla bütöv zərgərlər nəsli yetişmişdir. Zərgər Rüstəm, Behbud, İsmayıl, Muxtar, Seyidəli və başqaları zəngin sənət biliklərinə malik məşhur sənətkarlar olmuşlar (**Fəzail Vəliyev, Gülzadə Abdulova. Qarabağ geyimləri (kataloq), B., 2016, c. 82**).

*Dabbaqlıq*. Ənənəvi sənət-peşə sahələrindən biri də dəri aşılamaq – dabbaqlıq idi. Şuşada olan 19 dabbaq emalatxanasında 40 fəhlə işləyirdi. Burada heyvan dərisini təbii maddələrlə aşıladıqdan sonra müxtəlif rənglərlə boyayır, çarıq gönü, meşin, safyan (keçi dərisi) və s. adlanan dərilər hazırlayırdılar. İldə 150 dəri hazırlanırdı **(F.Ağamalı. XVIII əsrin II yarısı – XIX əsrin əvvəl-**

**lərində Quzey Azərbaycan Xanlıqlarında sosial-iqtisadi münasibətlər. B., 2007, s.215).**

*Sərraclıq.* Məlumdur ki, Qarabağ həm də Azərbaycanın ən qədim at cinslərindən biri Qarabağda yetişdirilmişdir. "Qarabağ atı" adlanan bu at cinsi öz fiziki keyfiyyətləri, möhkəm bədən quruluşu, yüksək sürəti və döyüş qabiliyyəti ilə bütün dünyada məşhur olmuşur. Atçılıq təsərrüfatının inkişafı ilə əlaqədar Qarabağın bir sıra kənd və obalarında, o cümlədən Şuşa şəhərində sərraclıq sənəti də geniş yayılmışdı. Sərrac ağ gönü aşılamaqla yüksək keyfiyyətli yəhər dəsti – tapqır (qarınaltı), üzəngi qayışı, quşqun, sinəbənd, qıçaltı, qaşlıq və s. hazırlayırdı. Yəhər dəstini xüsusi zövqlə bəzədilmiş qantarca və qalcı tamamlayırdı.



Yəhər dəsti (XIX əsr)

Bundan əlavə, Şuşanın ayrı-ayrı məhəllələrində *silahqayırma, dulusçuluq, keçəçilik* və digər peşə – sənət sahələri üzrə tanınan bacarıqlı ustalar da fəaliyyət göstəririrdilər.

Sənət və sənətkar olan yerdə, şübhəsiz ki, ticarət də inkişaf edir. Şuşanın ən böyük və tarixi ticarət mərkəzi *Rastabazar* sayılırdı. Şəhərin mərkəzindən keçən Rastabazarın başlanğıcına *Bazarbaşı,* nisbətən böyük sahəsi olan qurtaracağına isə *Meydan* deyilirdi. Bazarbaşıdan sonra Gəncə qapısından keçdikdə adlanan yer Şuşa qalası daxilində yerləşən ilk və ən böyük şəhər meydanı da bu idi. Meydan ərazisində xan sarayı kompleksinə aid müxtəlif xidməti tikililər yerləşirdi **(Elçin Əhmədov. Şuşa-Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı. B., 2022, s. 16-17).** Şəhərin ticarət dükanlarının və sənətkar emalatxanalarının cəmləşdiyi mərkəzdə qızğın

daxili və xarici ticarət aparılırdı. Burada bir neçə karvansara, həmçinin Uğurlu bəyin və Qazi Mirzə Əlinin tikdirdikləri hamam, bulaq və məscid vardı. Gövhərağanın vaxtilə bərpa etdirdiyi Böyük Cümə məscidi Rastabazarın mərkəzində idi **(Çingiz Qacar. Старая Шуша. B., Şərq, 2007, s.82-83).**



Rastabazar (Divanxana meydanı)

Qarabağ xanlığı zamanında Şərqin və Qərbin bir çox ölkələri ilə ticarət əlaqələri saxlayan Şuşa şəhərindən keçən üç yol daha məşhur idi. Bu yollardan biri Şuşa ilə Gəncəni, ikincisi Şuşa ilə Şəkini, üçüncüsü isə Arazı – Xudafərin körpüsünü keçməklə Azərbaycanın cənubunu birləşdirirdi. Bu yolla Hindistana qədər getmək çıxmaq olurdı. Bundan əlavə, Şuşadan Gorusa və Naxçıvana uzanan yol da işlək idi. İbrahim Xəlil xanın hakimiyyəti dövründə qış aylarında da qarabağlı tacirlər Şəki, Şirvan və Gəncə ipəyini alıb xarici bazarlara çıxara bilirdilər.

Ticarət əlaqələrində məşhur Qarabağ atları və Qarabağ xalçaları da mühüm rol oynayırdı. Cənub xanlıqlarına aparılan mallara şəhərlər üzrə gömrük vergisi təyin edilmişdi. Lakin Osmanlı dövləti Qarabağ tacirlərini özünə cəlb etmək məqsədilə onları bu xərcdən azad etmişdi **(N.Axundov, Qarabağ və "Qarabağnamələr", "Qarabağnamələr" II kitab, B., yazıçı, 1991, səh. 449-451).**

Şuşada İran, Türkiyə, Rusiya və Hindistan tacirlərinə daha çox rast gəlinirdi. İsfahandan buraya qalın pambıq parçalar, zərbaf, ipək baş örtükləri, ağ və mavi rəngli pambıqdan toxunmuş çadralar, şəkər; Yəzddən müxtəlif ipək məmulatı və pambıq örtüklər; Təbrizdən qalın pambıq parça, bez, qanovuz, xına, tütün, həmçinin iydə, badam kimi quru meyvələr; Xorasandan xurcun; Xoydan və Urmiyadan bez, çit parçalar; Ərdəbildən qalın pambıq parçalar gətirilirdi.



Şuşa-Tiflis karvan yolu

Ümumiyyətlə İrandan Qarabağa gətirilən malların illik ümumi dəyəri 140 min gümüş rus rubluna bərabər idi. Şuşa tacirlərinin Təbriz və İsfahanla ticarət əlaqələri daimi xarakter daşıyırdı.



Qarabağ atı 1892-ci il mayın 1-də Böyük şahzadə Kseniya Aleksandrovnaya hədiyyə edilib

Osmanlıdan isə Şuşaya daha çox qax (meyvə qurusu), atlas, müxtəlif örtüklər, ipək mallar və qəhvə, Tiflisdən, Bakıdan, Dərbənddən, Şəkidən, Naxçıvandan parçalar, mahud, çay, qənd, dəmir, neft, kağız, şüşə qablar, duz, zəfəran, silah və s. gətirilirdi. Şuşadan isə daha çox ipək parçalar, xalçalar, zərgərlik məmulatı və s. aparılırdı.

Şuşanın sənətkarlıq və ticarət mərkəzi kimi rolu-əhəmiyyəti artdıqca, ticarət yolları təşəkkül tapır, tacirlərin və ticarət əlaqələrində böyük əhəmiyyətə malik karvansaraların sayı çoxalırdı. Deyilənə görə, ümumilikdə Şuşanın mərkə-

zi və qərb hissələrində bu məqsədlə tikilən on karvansara fəaliyyət göstərmişdir ki, bu da şəhərin yüksək sosial-iqtisadi və ticarət əhəmiyyətini nümayiş etdirən əsas cəhətlərdən biridir.



Həftəbazar. Mərkəzi meydan

# Evləri var, xana-xana...

Şuşanın mədəni səviyyəsini və memarlıq simasını müəyyənləşdirən əsas atributlardan biri də onun yaşayış evləri və imarətləri idi. Qaynaqların məlumatından aydın olur ki, ticarət əlaqələri şəhər sakinlərinin həyat və məişətinə çox böyük təsir göstərir, şəhərin böyüməsinə, əhalisinin çoxalmasına səbəb olurdu. Burada ən müxtəlif ev tiplərinə rast gəlmək mümkün idi. Bir tərəfdə varlı, tavanalı şuşalıların, adlı-sanlı zadəgan, bəy, sənətkar, tacir və ali ruhani təbəqəsindən olanların iki-üç mərtəbəli, çoxotaqlı, aynabəndli evləri, dəbdəbəli mülkləri və imarətləri, digər tərəfdə isə nisbətən balaca, təmtəraq və dəbdəbədən uzaq sadə evlər diqqəti cəlb edirdi.



Xurşidbanu Natəvan və onun evi

Lakin sadə və ya dəbdəbəli tikilməsindən asılı olmayaraq, həm varlı, həm də kasıb evlərində *qonaq* üçün ayrıca otaq nəzərdə tutulur və bu otaqdan yalnız qonaq gələndə istifadə edirdilər. Yaraşığı, səliqə-sahmanı ilə diqqəti cəlb edən qonaq otağına ən yaxşı xalıları döşəyir və pərdələrlə bəzəyirdilər. Otağın bayıra açılan ayrıca qapısı olurdu. Hacı Qulunun milli üslubda inşa edilmiş üç mərtəbəli, üç otaqdan, iki zaldan, geniş həyətdən və həyətdəki bir sıra yardımçı tikililərdən ibarət mülkü, Mehmandarovların malikanə kompleksi, Xan qızı Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Əsəd bəyin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Ü.B.Hacıbəylinin, Z.B.Hacıbəylinin, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzə Qacarın evləri və digərlərinin mülkləri belələrindən idi.




Üzeyir Hacıbəyli və onun evi

Azərbaycan memarlıq tarixinin görkəmli tədqiqatçısı Ə.Salamzadənin yazdığına görə, *adətən ikimərtəbəli tikilən Şuşa evlərinin konfiqurasiyası üçün 3 tip – düzbucaqlı, Г-formalı və П-formalı evlər xarakterik olmuşdur. Bu evlərin daxi-*



Bəhmən Mirzə Qacar və onun mülklərindən biri

lində otaqların düzülüşü də oxşar idi. Belə ki, ikinci mərtəbədəki otaqların düzülüşü ya tamamilə birinci mərtəbəni tamamlayır, ya da ona oxşar olurdu. Parad girişlərinə və ikinci mərtəbədə yerləşən qonaq otaqlarının dekoruna xüsusi diqqət yetirilirdi. Evlərin birinci mərtəbəsi adətən mətbəx, yardımçı və xidməti hissə olaraq istifadə edilirdi. Mərtəbələr arasında əlaqə daş və ya taxtadan inşa edilmiş pilləkənlər vasitəsiylə həyata keçirilirdi.

Birinci mərtəbəsində adətən dükan və anbarlar yerləşən evlərin küçəyə baxan fasadları vitrin xarakteri daşıyan geniş pəncərələr və dükana giriş üçün nəzərdə tutulmuş geniş qapı şəklində işlənirdi. Əvvəlki dövrlərə aid ev nümunələrində fasadlar daha qapalı görünüşə malik olmaqla, pəncərələr aralı yerləşdirilmiş və daha kiçik ölçülərə malik olmuşdur. Nisbətən sonrakı dövrün evlərinin fasadlarnda isə açıqlıq, plastiklik müşahidə edilirdi. Burada pəncərələr daha böyük ölçü alır və bir çox evlərdə adi şüşə yerinə, şəbəkə pəncərələrdən istifadə olunurdu.

Küçə fasadlarından fərqli olaraq Şuşa evlərinin həyət fasadlarının inşasına xüsusi diqqət yetirilir, fasadın mərkəzinə əksər hallarda daş hörgü ilə kontrast



Zülfüqar Hacıbəyli və onun evi

*təşkil edən taxta eyvan və ya şəbəkəli pəncərələrdən yığılmış şüşəbənd quraşdırılırdı* (**Саламзаде, А.В. Архитектура Азербайджана XVI-XIX вв. Баку. 1964, s. 169-171).**

Ev tikintisində əsasən yerli daşlardan və əhəngdən istifadə edilir, divarlar ağ daşlarla üzlənir, bəzən də yonma daş bəzəkləri işlədilirdi. Şuşalı ustalar binaların dam örtüyünün, döşəmə və qapı-pəncərənin hazırlanmasında yerli ağac materiallarından gen-bol istifadə edirdilər. Evlərin qızdırılması üçün divarın içərisində *soba* hörürdülər. Sobanın tüstüsü asma buxarı vasitəsilə damdan xaric olurdu. Buxarılardan da istifadə edilirdi. Şuşa evlərində nəbati naxışlarla bəzədilmiş *buxarının* bir çox gözəl nümunələri olmuşdur.



Zöhrabbəyovların evi

Onu da əlavə edək ki, Şuşanın əksər həyətləri geniş və bağlı-bağatlı idi.

Evlərin küçəyə baxan fasadı xüsusi işlənmiş giriş tağına və ya darvazaya malik olurdu. Bu cür girişlər əsasən fasadın ümumi memarlıq kompleksinə daxil edilir, həyət evin arxasında yox, yanında yerləşdikdə isə evdən ayrı yerləşən darvaza qoyulurdu. Həyət qapılarının bayır tərəfində adətən, *taqqılbab* deyilən qapıdöyən asılırdı. Alaqapılarının üstü çox vaxt yastı düzəldilir və bəzən həyətə giriş tac şəklində bəzədilirdi.

Nəhayət, ev peşəsi və sənətkarlıqla məşğul olan əhaliyə məxsus ev kompleksinə müxtəlif səciyyəli təsərrüfat tikililəri – emalatxana, karxana, kümxana, dəmirçixana, dükan və s. də daxil idi. Xalq inşaatçıları evlərlə bərabər, bu emalatxanaların qapısına da qoruyucu vasitə olan at nalı vurur və güman edirdilər ki, bədnəzərdən uzaq olacaqlar.



Nəcəf bəy Vəzirov və onun evi

# Şuşalıların mənəvi dünyasından

Şuşa şəhərinin maddi-mədəni irsi kimi, mənəvi irsi – adət-ənənələri, əxlaqi-davranış normaları, folkloru, bayramları və s. də zəngin və çoxcəhətlidir. Ulularn yadigarı olan bu dəyərlər əsrlər boyu göz bəbəyi kimi qorunmuş və günümüzə qədər gəlib çatmışdır. Onların içərisində *ağsaqqallıq institutunun* özünəməxsus yeri vardır.



Şuşa bəyləri

Bəli, Şuşada hər nəslin, hər tayfanın, hər məhəllənin sözü keçən, tədbirli, təcrübəli müdrik ağsaqqalı, ağbirçəyi olmuşdur. Çətinə, dara düşənlər ağsaqqala müraciət edir, çıxış yolu diləyir, lazım gəldikdə xahişə-minnətə aparırdılar. Onun vasitəsi ilə küsülülər barışır, münaqişələrə son qoyulurdı. Toy eləyənlər, oğul evləndirənlər, qız köçürənlər ağsaqqalların yanına məsləhətə gəlir, *Ağsaqqal sözü Tanrı hökmüdür-* deyirdilər. Bir də deyirdilər ki, *Ağsaqqal olmayan yerdə əmin-amanlıq olmaz, Ağsaqqalı, ağbirçəyi olmayan ev xeyir-bərəkət tapmaz.*

*Xeyriyyəçiliyi* həyatlarının qayəsi bilən xalqımıza məxsus yüksək humanist keyfiyyətlər şuşalılara da xas bir cəhətdir. Ev tikənə, abadlıq işləri aparana, bulaq çəkənə, yaşıllıq yaradana, yol salana, işıq çəkənə kömək edir, arxa dururdular. Məhəllələrin toy-düyünündə, xeyir-şərində qonum-qonşunun bir-birinə köməyi adi, lakin vacib iş sayılırdı. Kimsəsizlərə, ehtiyacı olanlara əl tutmaq, qocalara diqqət və ehtiram göstərmək bu elin-obanın bir əxlaq qaydası idi. Bu cür adamlar isə Şuşada çox olub.



Xan qızı Xurşidbanu Natəvan

Onlardan biri Qarabağ xanlarının varisi, görkəmli şairə Xurşidbanu Natəvan öz xeyriyyəçiliyi ilə xalqın dərin hörmətini qazanmışdı

və buna görə indinin özündə də yaddaşlarda qeyrət və xeyirxahlıq mücəssəməsi kimi yaşayır. Təsadüfi deyil ki, el arasında "Allah xan qızı Natəvana qəni-qəni rəhmət eləsin", – deyir, ruhuna dualar edirlər.

Araz çayından Ağcabədiyə, Şuşa şəhərinə və Malıbəyli kəndinə çəkilən su xətləri məhz Xan qızının adı ilə bağlıdır. Günümüzədək gəlib çatan Şuşadakı "Xan qızı bulağı" və Malıbəylidəki "Novlu bulaq" onun yadigarlarıdır. Bəzi məlumata görə, Bakıdan Şıx kəndinə gedən baş yol da Natəvanın xeyriyyəçilik fəaliyyəti sayəsində ərsəyə gəlmişdir. Bayramlarda neçə-neçə evləri hədiyyələrlə, bayram payı ilə sevindirib, – Xan qızı. Onun Şuşada buzxana, hamam, su anbarı tikdirməsi, geniş bağ saldırması və s.-lə bağlı çoxlu məlumatlar vardır **(Xurşid Banu Natəvan – 180 (kataloq). Milli Azərbaycan Tarixi Muzeyi, 2012, səh.7).**



Ağabəyim Ağa Cavanşir

Şuşada ilk hamamı isə Qarabağ xanı İbrahimxəlil xanın əmisi oğlu Əbdül Səməd bəy xeyriyyə məqsədilə tikdirmişdir. Bir vaxtlar həmin hamam bütün şuşalıların rahatlıq tapdığı istirahət və sağlamlıq məkanlarından idi.

Mehmandarovlar nəslindən olan Mustafa bəy Mehmandarov qardaşı oğlu Qasım bəy Mehmandarovla birlikdə Şuşanın "Təzə məhəllə" sakinləri üçün su xətti çəkdirmiş, abadlıq işləri gördürmüş, yerli daşlardan memarlıq abidəsi sayıla biləcək bulaq inşa etdirmişdir.

Hacı Nəsir Rza oğlu "Çölqala" məhəlləsində şirin sulu bulaq inşa etdirmiş, Cahangirov soyadlı bir tacir isə "Mamayı" məhəlləsinə 3-cü su xəttini gətirtmişdir. La-

kin bütün bunlar Şuşa camaatının xalqımızın mənəvi mədəniyyət xəzinəmizə bəxş etdikləri dəyərli örnəklərin yalnız bir qismidir.

Mənbələrdən də məlum olduğu kimi, Qarabağın və onun baş tacı olan Şuşanın *qonaq-qarası* da heç vaxt əskik olmayıb. *Qonaq tanrı amanında, Qonaq-qaralı ev həmişə ruzulu olar, Qonağa da qurban, gəldiyi yollara da,* – deyiblər bu yerlərdə. Yuxarıda qeyd etdiyimiz kimi keçmişdə Şuşada tikiləcək evlərin layihəsində qonaq üçün ayrıca otaq planlaşdırılırdı ki, ona elə "qonaq otağı" da deyirdilər. Məhəllələrin qız-gəlinləri xalça-palaz toxuyanda, nənələr, analar yorğan-döşək sırıyanda, yastıq düzəldəndə ilk növbədə qonaq otağını düşünürdülər. Şuşalılar gələn qonağa "Xoş gəldiniz, yaxşı elədiniz", gedən qonağa isə "Gərək bir az da qalaydınız, bizi məmnun edəydiniz", – deyirdilər.

Azərbaycanın hər yerində olduğu kimi Şuşanın da *toy-büsatı* gözəl olurdu. Burada toyların Azərbaycanın hər yerində olduğu kimi, *toyaqədərki, toy* və *toydan sonrakı* müddəti əhatə edən üç əsas mərhələsi, bu mərhələlərin hər birinin ardıcıl olaraq keçirilən mərasimləri *(qızgörmə, qızbəyənmə, elçilik, nişan, paltarkəsdi, xınayaxma, duvaqqapma, üzəçıxma),* hər bir mərasimin də adət şəklini almış qayda-qanunları vardı. Xüsusilə "*Bəyin toy hamamı*" mərasimi məhəllə toylarının bəzəyinə çevrilirdi.

Belə ki, toyun sonuncu günü bəy oğlan təntənəli şəkildə, çalğı ilə el hamamına yollanırdı. Bu münasibətlə oğlan evi hamamı 2-3 saatlıq icarəyə götürürdü. Oğlan hamamda tay-tuşları ilə bir yerdə yuyunur, sağdış-soldış ona hər cür xidmət göstərirdi. Hamamın qapısı ağzında musiqiçilər çalır, xanəndə oxuyur, gənclər şənlənir, oynayıb-əylənirdilər. Adətə görə, bəy oğlanın toy paltarını çoxlu oğul-nəvə sahibi olan yaşlı bir kişi geyindirirdi. Adət olaraq, musiqi çalınır, tüfənglərdən göyə atəş açılırdı. Bəyin başına şirni, qəpik-quruş səpilir, adamlara şərbət paylanır, sonra bəy oğlana "Allah mübarək eləsin, həmişə təmizlikdə" deyirdilər.



Cıdır düzü, bayram şənliyi

Beləliklə, bəy oğlan musiqi sədaları altında cah-cəlalla evə qayıdırdı. Bəy anası oğlunun evindən ruzi-bərəkət əksik olmasın deyə, onun başı üstündə çörək kəsir, başına üzərlik dolandırıb ocağa atırdı. Burada toya gələn qadınlar bəyin boynuna parlaq rəngli ipək parça, kəlağayı salırdılar.

Şuşa toyları adətən istirahət günləri keçirilirdi. Məclislər gündə iki dəfə (gündüzlər qadınlar, axşamlar kişilər üçün) qurulurdu. Qadınlar xalı, gəbə və döşəklərin üstündə bardaş qurub oturur musiqiçilər isə kürsünün üstündə oturub çalırdılar. Kişi qonaqlar isə otaqda, yaxud çadırda düzülmüş kürsülərdə əyləşirdilər.

Toyların əsas "fiquru" – "padşahı" çox vaxt Xan qızı Natəvanın oğulluğu Seyid Həsən ağa və yaxud şair Növrəs seçilirdi. "Padşah"ın "fərraşı" da olurdu. Əlində şallaq, nizam-intizamı qoruyan "fərraş" iştirakçıları oynamağa dəvət

edərdi. Kimsə oynamaqdan imtina edərdisə, "fərraş" "padşahın" əmri ilə ona ya bir neçə şallaq vurar, ya da məclisin daha maraqlı keçməsi üçün bir gülməli söhbət etməsini, əhvalat danışmasını tələb edərdi.

Qeyd etdiyimiz kimi, təbiətinə, təbii gözəlliklərinə görə Şuşa həmişə gözəl istirahət, xoş ovqat yeri, sağlamlıq məskəni kimi məşhur olmuşdur. Buna görə də əslən qarabağlı olanlarla bərabər digər bölgələrdən, yaxın-uzaq ellərdən də çox qonaqlar Şuşaya təşrif buyururdular. Azərbaycan xalqının tanınmış ziyalıları-şair və yazıçıları, sənət, dövlət adamları, alimləri və başqaları ölkəmizin bu dilbər guşəsinə tez-tez baş çəkir, burada dincəlir, buranın halal insanlarının süfrəsinə qonaq olurdular.



Gözəl olur bu yurdun toy-büsatı

"Şuşa" qəzetinin redaktoru, yazıçı, publisist Vasif Quliyev deyir ki, şuşalılar süfrələrinin halal çörəyi ilə fəxr edər, qonaqla kəsilən çörəyi yüksək əxlaqi meyar, düzlük, paklıq rəmzi sayar, həmişə ona sadiq olmağa çalışardılar. Onlar "duz – çörək – düz çörək",- deyib və istəyiblər ki, halal çörək kəsilən yerdə yalan, xəyanət və riyakarlıq olmasın.

Şuşa Azərbaycanın ictimai-siyasi, mədəni-mənəvi həyatında mühüm xidmətləri olan dəyərli ziyalıları və şəxsiyyətləri ilə də həmişə haqlı olaraq öyünür. Onların gərgin əməyi və səyi nəticəsində Şuşada yeni üsullu məktəb yaradılmış ("Üsuli-cədid"), kitabxana və qiraətxanalar açılmış, ədəbi-musiqili dərnəklər, məclislər təşkil olunmuş və digər mədəni tədbirlər keçirilmişdir. Maarif və mədəniyyət sahəsində fəaliyyət göstərmiş Həsənəli xan Qaradağinin "Üsuli-cədid" məktəbinin açılmasında mühüm rolu olmuşdur. Fədakar ziyalılar, maarif xadimləri əl-ələ verərək milli ruhun, mədəniyyətin dirçəlməsində maarifə və təhsilin inkişafına böyük önəm vermişlər. Vasif Quliyevin də dediyi kimi, buna görə *"Şuşadan iki yüzdən artıq söz sənətkarı-yazıçı, şair çıxıb. Şuşa ədəbi mühiti isə Azərbaycan ədəbiyyatına korifeylər bəxş edib"*.


El həkimi Mirzə Məhəmmədqulu

Şuşa təbiətinin rəngarəngliyi, dağlarının çöl və meşələrinin müalicəvi ot və bitkilərlə zənginliyi burada onların dilini bilən və istifadə etməyi bacaran xalq təbiblərinin, loğmanların yetişməsinə şərait yaratmışdır. Araşdır-

malardan bəlli olur ki, Məşədi Ağa Məhəmmədhüseyn, Mirzə Məhəmməd bəy Hacı bəy oğlu Qarabaği, Axund Molla Əli İbrahimxəlil xanın böyük oğlu Məhəmmədhəsən ağanın, onun oğlu Cəfərqulu xan Cavanşirin və Mehdiqulu xanın şəxsi həkimi olmuşlar **(Zəhra Muradova. Sağlamlıq və sənətkarlıq ocağı. Şuşa, B., 2022, s.30-31).**

XIX əsrin əvvəllərində Şuşada "Nüsxəbəndlər" adlı xeyriyyə cəmiyyəti fəaliyyət göstərirdi. Yaşlı şuşalıların dediyinə görə, cəmiyyətin el təbiblərindən sayılan Məşədi Əkbər, Mirzə Sadıq, Mirbaba bəy Mirzə Cavad, Mirzə Hüseyn, Əbdülkərim bəy Mehmandarov və başqaları Kirs, Keçəldağ, Qırxqız dağlarından topladıqları dərman bitkilərinin qurudulma, hazırlanma və saxlanma qaydalarını çox gözəl bilirdilər. Bu əczaçı-təbiblər xəstələri müalicə etmək üçün Yuxarı Gövhər Ağa Məscidində xüsusi müalicəxana – şəfa ocağı təşkil etmişdilər. Dövrünün görkəmli təbiblərindən olan Mirzə Məhəmmədqulu tibb təhsilini İsfahanda almış, həkimliyin bütün incəliklərinə bələd olduqdan sonra Şuşaya qayıtmış, əvvəl Bəhmən Mirzə Qacarın sarayında həkimlik etmiş, onun sarayında yaşamışdır. Daha sonra Mirzə Məhəmmədqulu Gövhər Ağa Cavanşirin, sonra isə Xurşidbanu Natəvanın şəxsi ailə həkimi olmuşdur. Onun zəngin kitabxanası – təqribən 150 adda qədim tibb ədəbiyyatı, o cümlədən Əbu Əli ibn Sinanın 750 il bundan əvvəlki bir əlyazması hazırda AMEA Əlyazmaları İnstitutunda saxlanılır **(Çingiz Qacar, səh. 253).**

Şuşanın şöhrətlənməsində onun söz və musiqi xadimlərinin böyük xidmətləri olmuşdur. 1864-cü ildə şair Mirzə Rəhim Fənanın təşəbbüsü ilə burada "Məclisi-üns" ədəbi məclisi yaradılmışdı. İlk vaxtlarda cəmi dörd üzvü olan "Məclisi-üns", 1872-ci ildə Xurşidbanu Natəvanın himayəsinə keçdikdən sonra xeyli böyüdü və üzvlərinin sayı 30-a çatdı. Məclisə xanəndələr də dəvət olunur və şairlərin qəzəlləri əsasında muğamlar ifa olunurdu.

Yeri gəlmişkən deyək ki, Şuşa Azərbaycan musiqi xəzinəsinə Hacı Hüsü, Sadıqcan, Keçəci oğlu Məhəmməd, İslam Abdullayev, Cabbar Qaryağdıoğlu,

Məşədi Məhəmməd Fərzəliyev, Əbdülbaği Zülalov (Bülbülcan), Məcid Behbudov, Qurban Pirimov, Üzeyir bəy Hacıbəyli, Zülfi Adıgözəlov, Bülbül, Xan Şuşinski və daha neçə-neçə böyük sənətkarlar bəxş etmişdir. Onlar toylarda, el şənliklərində və ziyafətlərdə çalıb-oxumaqla yanaşı, mədəni kütləvi tədbirlərdə, konsertlərdə, xeyriyyə gecələrində də iştirak edirdilər. Təsadüfi deyil ki, Şuşa hələ XIX əsrdə obrazlı şəkildə "Qafqazın konservatoriyası" adlandırılmışdı.



"Məclisi-üns"ün yenidən Şuşada

Şuşa öz gözəl memarlıq inciləri, maddi-mədəniyyət abidələri ilə də məşhurdur. Sayı 200-dən artıq olan bu cür abidələrin arasında Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansara, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, İkimərtəbəli karvansara, Realnı məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. qeyd etmək olar.

Şuşanın maddi-mədəni və memarlıq irsinin formalaşmasında yerli sənətkarların böyük xidmətləri olmuşdur ki, onların da arasında Mir Möhsün Nəvvab Qarabaği, Məmmədyar, Usta Qənbər Qarabaği, Məşədi Əliqulu, Qarabağlı Kəblə Əkbər, Məşədi Xaspolad, Kərbəlayı Səfıxan Qarbaği və başqalarının adlarını qeyd etmək olar.

Bayramlarda, el şənliklərində, asudə vaxtlarda Şuşanın ayrı-ayrı məhəllə-

lərində xalq oyun-tamaşaları oynanılırdı. Xüsusilə Novruzu – ilin bu əziz gününü layiqincə qarşılamaq üçün Şuşanın bütün məhəllələrində xeyirxah işlər görülür, küçələrdə, həyətlərdə abadlıq işləri aparılır, yollar təmizlənir və abadlaşdırılırdı. Uşaqlar, cavanlar bayramqabağı al-əlvan libaslarını, qız-gəlinlər isə təzə ipək qumaş paltarlarını geyinər, zinət əşyalarını taxar, tellərini sığallayıb burar və daha gözəl görünməyə çalışardılar.



Cıdır düzündə el şənliyi

"Novruz xonçası" hazırlanar, imkansızlara, ehtiyacı olanlara əl tutulardı. Bayram sovqatı ilə kimsəsizləri şadlandırar, onların kövrək qəlbini ovundurardılar ki, bayramı şirinlik içərisində keçirsinlər. Bayram çərşənbələrindən başlayaraq oğlan uşaqları və cavanlar tərəfindən *yumurta döyüşdürmə* oyun-əyləncəsi icra olunardı. Q*apı pusmaq, qurşaq atmaq, şal sallamaq* Qarabağ bölgəsində də dədə-babadan qalma qədim bir adət idi. Hava qaralandan sonra yerinə yetirilən bu adətlər arzu-niyyətli gənc oğlan və qızlar üçün bəxtlərini sınamaq məqsədi daşımış, ayaq basdıqları qapıdan xoş sözlər eşitmək arzsunu ifadə etmişdir.

Adətə görə, bayram axşamı nişanlı qızların adına oğlan evindən bəzəkli



Novruz xonçası

xonçalar gedir, sevinc payı yola salınırdı. Ona *Bayramlıq* deyirdilər. Al-əlvan geyinmiş qadınlar, qız-gəlinlər allı-güllü, saçaqlı tirmə şalla örtülü xonçalar, zərli boğçalar aparardılar. Xonçalar səməni və əlvan şamlarla bəzədilərdi. Novruz sovqatından qohum-qonşuya da paylanırdı. Deyərlər ki, Novruz sovqatından yeyən adamın ürəyindən keçən dilək, arzu tezliklə hasil olar.



Bulaq başı

Xonçaya qız üçün qırmızı bayram libası, yaxud ipək parça, qırmızı baş yaylığı, kəlağayı və zinət əşyası ilə yanaşı, rəngbərəng yumurta, bayram yemişi, qırmızı alma, yeddi növ şirniyyat, bir də qız ata-anası, qardaş-bacısı üçün hədiyyələr qoyulardı.

Digər xalq bayramlarında olduğu kimi, Novruz bayramında da nişanlı qızın evinə alnına və ayaqlarına xına (*həna*) qoyular, boynuna qırmızı parça salınmış, zınqırovlu toğlu və ya qoç göndərərmişlər. Gələnlər bu əziz bayram münasibətilə bir-birinə gözaydınlığı verər, təbrik edər və alqış söyləyərdilər: "Bayramınız mübarək, neçə-neçə belə bayramlara çatasınız", "Üzünüzə xeyirli, bahar nəfəsli sabahlar açılsın" və s.




Novruz şənliklərində at yarışına çıxardılar ki, buna *Bahar cıdırı* deyərdilər. Qarabağ xanlığının yarandığı dövrdən bu yarışlar Şuşa şəhərinin şərqindəki dağda, axarlı-baxarlı *Cıdır düzündə* (vaxtilə müntəzəm cıdır yarışları keçirildiyi üçün bu düzəngah belə adlandırılmışdır) keçirilərdi. Ən çox keçirilən və öz kütləviliyi ilə seçilən "Cıdır", əslində cavanların atçapma yarışındakı məharətini sınağa çəkən bir oyun idi. Ən yaxşı çaparlar burada müəyyən edilərdi. Məhəllələrin igidləri irəlicədən cıdıra hazırlıq görərdilər.

Qarabağ atlarını çaparkən onun üstündə müxtəlif hərəkətlər nümayiş et-

dirmək, qılınc oynatmaq, ox atmaq, at belində icra olunan oyunlar və digər mürəkkəb fiziki hərəkətlər cıdır-tamaşanın ən mühüm elementləri idi. Bununla da cıdıra çıxanlar öz şücaətlərini, igidliyini nümayiş etdirərdilər. Cıdır iştirakçılarından kimin atı müəyyən məsafəni daha tez qət etsəydi, o, yarışın qalıbı sayılardı. Ona adət üzrə xonça təqdim edilər və atının boynuna qırmızı xələt bağlayardılar. Cıdır bayramı Şuşaya gözəllik gətirərdi. Bu tamaşada qız-gəlinlər niyyət tutar, ürəklərindəki arzunu sınayardılar.

Axır çərşənbə və Novruzda səhər – gün çıxmamışdan qabaq qız-gəlinlər, cavan oğlanlar, ahıllar niyyət eləyib axar suyun üstündən tullanar, "ağırlıqlarını suya tökər", çillə kəsdirərdilər. Hamı təzə sudan – Novruz suyundan gətirib məhəlləyə, qapı-bacaya, həyətə, tövləyə, bərəkət təknəsi təndirə, dəyirmana səpər və deyərdilər ki, "belədə il ruzulu olar, bərəkət artar".



Şuşa musiqiçiləri

Adətə görə Novruz bayramı günlərində dost-tanış, qohum-əqrəba toplanıb Şuşanın səfalı guşələrinə, meşələrə, çəmənliklərə gəzintiyə, istirahətə çıxardılar. İsa bulağı, Qırxqız yaylağı, Daşaltı, Topxana meşəsi və s. ən məşhur istirahət yerləri hesab olunurdu. Qarabağın adlı-sanlı xanəndələri, musiqiçiləri konsertlər təşkil edirdilər.

Cıdır düzündə də xanəndələrin, müğənnilərin məlahətli səsi, zəngulələri

səmanı başına alardı, "Qarabağ şikəstəsi" pərvazlanardı. *"Deyirlər bu şikəstə dağlar nəğməsidir, dərələrin, uçurumların, yarğanların üstündən, bu dağdan o dağa haraylanan, boğazda qaynaya-qaynaya, uzaqdan-uzağı səsləyən, yamacdan-yamaca, qayadan-qayaya çatıb əks-səda ilə qayıdan bir Qarabağ havasıdır"* (**Anar. Dünya bir pəncərədir. B., 1986, səh.55**).

Məhəllə meydanlarında tonqal qalanar, odun-ocağın şərəfinə nəğmələr, alqışlar, andlar, müdrik sözlər deyərdilər. Böyükdən kiçiyədək hamı yeddi dəfə



Xan Şuşinski və onun muğam qrupu

tonqal alovunun üstündən tullanar, "ağrım-uğurum üstümdən", "ağrım-bezarım burada qalsın", – deyərdilər. Bununla da köhnə ilin qada-balasını, ağrı-acısını Novruz tonqalında "yandırıb", qarşıdan gələn təzə ilin əmin-amanlıq, sağlamlıq ili görməyi arzulayardılar.

Köklü şuşalıların dediyinə görə. XVIII-XIX əsrlərdə Şuşada, ümumiyyətlə bütün Qarabağ bölgəsində xalq oyun-tamaşa ustaları – oyunbazlar da böyük iz

buraxmışlar. Abdulla Nəcəf, Alı Yüzbaşı (şair Mirzə Həsən Yüzbaşovun babası), Çatınoğlu İsa, Kərimi Məmmədqulu, Lotu Qulu və başqaları məzəli oyunu, incə zarafatı, hazırcavablığı, him-cimlə, qaş-gözlə danışmaq qabiliyyəti, yüksək akt



Şuşa xanəndələri

yorluq məharəti ilə şuşalları və qonaqları məşğul edib əyləndirən məşhur oyunbazlar idi. Xüsusilə məşhur məzhəkəçi Çatınoğlu İsa haqqında çoxlu rəvayətlər yayılmışdı. O, bayramlarda, toylarda və başqa xüsusi günlərdə əl zirəkliyi və çevikliyi ilə cürbəcür fəndlər göstərir, gülməli, məzəli məzhəkələr çıxarmaqdan yorulmurdu. Lotu Qulunun adı isə qarabağlılar arasında bu gün də dillər əzbəridir. Deyilənə görə o, Pənahəli xanın təlxəyi olmuş və öz baməzə hərəkətləri və atmacaları ilə xanın "eynini açırdı".

# "ƏZİZ ŞUŞA! BİZ QAYITMIŞIQ" və ya epiloq əvəzi

Qarabağ xanlığı və onun mərkəzi şəhəri olan Şuşa haqqında dövrün əsas qaynaqlarından sayılan "Qarabağnamələr"də və digər mənbə, sənəd və elmi-tədqiqat əsərlərində bu diyarın bütün tarixi dövrlərdə Azərbaycan torpağı olması barədə kifayət qədər inandırıcı faktlar əksini tapmışdır. Çoxsaylı abidələr, arxeoloji və antropoloji sübutlar, toponim, etnonim, oykomin və oronimlər, ötən yüzilliklərdən bizlərə gəlib çatan digər nişanələr də bu fikri təsdiqləyir. Erməni tarixçilərinin də bu faktlarla tanış olmasına rəğmən, ya susur, ya da həmin faktları saxtalaşdırmaqla, həqiqətin "gözünə kül üfürməyə" çalışırlar. Lakin həqiqət ondan ibarətdir ki, onlar Qarabağda (o cümlədən Şuşada) XIX əsrin əvvəllərində – Türkmənçay müqaviləsindən sonra (1828-ci il) Çar Rusiyasının hərbi-siyasi müdaxiləsi və birbaşa iştirakı ilə İrandan, Türkiyədən və digər yerlərdən köçürülərək məskunlaşdırılıblar. Rəsmi məlumata görə, təkcə 1828-30-cu illərdə Azərbaycana İrandan 40 mindən çox, Osmanlı imperiyasından isə 90 min erməni əhalisi köçürülmüşdür (**Ətraflı məlumat üçün bax: Azərbaycan tarixi arxiv sənədlərində XIX-XX əsrlər – tərtibçilər Yaqub Mahmudov, Ataxan Paşayev, Kərim Şükürov, B., Çaşıoğlu, 2012, səh.25**). Köçürülən ermənilərin xeyli hissəsi Qarabağın xristian-alban əhalinin varislərinin yaşadığı dağlıq hissəsində yerləşdirilmiş və bu zaman azərbaycanlıların hesabına ən yaxşı torpaqlarla təmin edilmişdir. Hətta Rusiyanın İranda səfiri işləmiş diplomat və yazıçı, erməni köçürmələrinin əsas təşəbbüskarlarından olmuş A.S.Qriboyedov da etiraf etmişdir ki, köçkün ermənilərin əksəriyyəti müsəlman

mülkədarların torpaqlarında məskunlaşır və az sonra onları sıxışdırmağa başlayırlar (**Вах: А.С. Грибоедов. Сочинения в двух томах. Т.2. Библиотека «Огонек», Изд. «Правда», М., 1971, с.340**). Çar Rusiyasının himayə etdiyi ermənilərin bu hərəkətləri vaxtaşırı narazılıqlara, etnik münaqişələrə, son nəticədə isə azərbaycanlıların öz doğma yurd-yuvalarını tərk etməsinə səbəb olurdu.

Bu vəziyyət az qala 200 il ərzində davam etdi. Hətta ötən əsrin 80-90-cı illərində ermənilər, öz havadarlarının köməyi ilə daha da irəli gedərək Şuşa başda olmaqla bütün Qarabağı işğal etdilər və burada özlərinin qondarma "oyuncaq-dövlət"ini yaratdılar. Bir milyondan çox insanımız el-obasından, öz yurd-yuvasından, ev-eşiyindən didərgin düşdü.

Nəhayət, 2020-ci ildə – 44 günlük Vətən müharibəsindən sonra müzəffər ordumuz 30 il bundan əvvəl itirdiklərimizi yenidən bizə qaytardı. Qarabağda, onun qəlbi Şuşada yenidən Azərbaycan bayrağı dalğalandı. Bu tarixi qələbədən sonra Şuşanın ilk Novruzu da yeni növraqla, yeni arzular və diləklərlə gəldi. Bu-



rada – tarixi Cıdır düzündə müzəffər ordumuzun Ali Baş Komandanı, Azərbaycan Respublikamızın Prezidenti İlham Əliyev tərəfindən yandırılan bayram tonqalı xalqımıza hədsiz sevinc bəxş edərkən, mənfur düşmənə od vurdu. İllərdən bəri həsrət qaldığımız bayram sevincini, şadyanaqlığı yenidən yaşadıq: lakin bu dəfə daha çox inam və ümidlə.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad edilməsini televiziya ekranlarından xalqımıza və bütün dünyaya elan edərkən demişdi:



*"...Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim, Şuşanı azad etdik. Bu, böyük qələbədir. Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün. Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Əziz Şuşa, sən Azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"*.

# BİBLİOQRAFİYA


1. Abdulova Gülzadə. Qarabağ xalçaları (kataloq). Bakı, 2013.
2. Ağamalı F. XVIII əsrin II yarısı – XIX əsrin əvvəllərində Quzey Azərbaycan Xanlıqlarında sosial-iqtisadi münasibətlər. Bakı, 2007.
3. Axundov N. Qarabağ və "Qarabağnamələr", Qarabağnamələr 2-ci kitab, Bakı, yazıçı, 1991.
4. Allahmanlı Mahmud. Təxəllüsü Vaqif, nəzmi dürəfşan. Bakı, 2017.
5. Anar. Dünya bir pəncərədir. Bakı, 1986.
6. Arif Mustafayev. Azərbaycanda sənətkarlıq. Bakı, 1999.
7. Azərbaycan tarixi arxiv sənədlərində XIX-XX əsrlər – tərtibçilər Yaqub Mahmudov, Ataxan Paşayev, Kərim Şükürov, Bakı, Çaşıoğlu, 2012.
8. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, 2 cilddə, c. 1, Bakı, 2007.
9. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, 2 cilddə, cild II, Bakı, 2007.
10. Babayev T.A. Bahadırlar yurdu, Bakı, 2020.
11. Baharlı M. "Əhvalati-Qarabağ", "Qarabağnamələr", II kitab, Bakı, 1191.

12. Cəlal Bəydili Məmmədov. Türk mifoloji sözlüyü. Bakı, 2003.
13. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1748-1805-ci illərdə siyasi vəziyyətinə dair, "Qarabağnamələr", I kitab, Bakı, 1989.
14. Əhmədov Elçin. Şuşa-Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı. Bakı, 2022.
15. Əliyeva Gülsüm. Azərbaycanın bədii parça və tikmələri. Bakı, Elm, 1990.
16. Əlizadə Həsən İxfa. Şuşa şəhərinin tarixi, "Qarabağnamələr", II kitab, Bakı, 1991.
17. Hüseynov Yunis. Şuşa salnaməsi. Bakı, 2015.
18. Köçərli F. Azərbaycan ədəbiyyatı. 2 cilddə, I c., Bakı, Elm, 1978.
19. Qacar Çingiz. Köhnə Şuşa. Bakı, Şərq-Qərb, 219.
20. Quliyev Vasif. Mehmandarovlar. Bakı, "Şuşa" nəşriyyatı, 2019.
21. Mahmudov Yaqub, Camal Mustafayev. Şuşa – Pənahabad, Bakı, 2020.
22. Mir Mehdi Xəzani. "Kitabi-tarixi Qarabağ", "Qarabağnamələr", II kitab, Bakı, 1991.
23. Mirzə Adıgözəl bəy. Qarabağnamə. "Qarabağnamələr", I kitab, Bakı, 1989.
24. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi, "Qarabağnamələr", I kitab, Bakı, 1989.
25. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi, "Qarabağnamələr", I kitab, Bakı, 1989.
26. Mirzə Yusif Qarabaği. "Tarixi-Safı", "Qarabağnamələr". II kitab,

**Bakı, 1991.**

**27. Mirzə Yusif Qarabaği "Tarixi-Safı", "Qarabağnamələr". II kitab, Bakı, 1991.**

**28. Muradova Zəhra. Sağlamlıq və sənətkarlıq ocağı Şuşa, Bakı, 2022.**

**29. Mustafayev Camal. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, Elm, 2002.**

**30. Rzaqulu bəy Mirzə Camal oğlu, Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri, II kitab, Bakı, 1991.**

**31. Rzaqulu bəy Mirzə Camal oğlu, Pənahəli xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri, "Qarabağnamələr", II kitab, Bakı, 1991.**

**32. Rzaqulu bəy Mirzəcamal oğlu, Pənah xan və İbrahimxanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri. "Qarabağnamələr" II kitab, Bakı, 1991,**

**33. Şuşinski Firidun. Azərbaycanın xalq musiqiçiləri. Bakı, 1970,**

**34. Tahir Şahbazov. XIX-XX əsrin əvvəllərində Şuşada xalçaçılıq sənəti və ermənilərin Şuşa xalçalarına əsassız iddiaları // Folklor Etnoqrafiya, 01, 2023.**

**35. Teymur Bünyadov. Musiqi alətləri və ifaçılar. Azərbaycan etnoqrafiyası 3 clddə, III cild, Bakı, "Şərq-Qərb", 2007.**

**36. Vasif Quliyev. Burdan bir atlı keçdi... Bakı. "Şuşa" nəşriyyatı, 2017,**

**37. Vəliyev Fəzail, Abdulova Gülzadə. Qarabağ geyimləri (kataloq), Bakı, 2016,**

38. Авалов Э. Архитектура и проблемы сохранения его исторического облика. Баку, 1977.
39. Грибоедов А.С. Сочинения в двух томах. Т.2. Библиотека «Огонек», Изд. Москва, Правда, 1971,
40. Каджар Чингиз. Старая Шуша. Баку, Şərq, 2007.
41. Саламзаде, А. В. Архитектура Азербайджана XVI-XIX вв. Баку. 1964.
42. Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX-XX веков. Ленинград, 1986.

# Mündəricat

Ön söz .................... 5
Tarixə bir nəzər .................... 7
İlmə-ilmə toxunan şəhər .................... 15
Çuxur məhəllə .................... 21
Qurdlar məhəlləsi .................... 23
Seyidli məhəlləsi .................... 26
Quyuluq məhəlləsi .................... 28
Culfalar (bəlkə Culfaçılar) məhəlləsi .................... 30
Mərdinli (Merdinli) məhəlləsi .................... 31
Hacı Yusifli məhəlləsi .................... 33
Çölqala məhəlləsi .................... 36
Qazançılı məhəlləsi .................... 39
Xanlıq məhəlləsi .................... 40
Saatlı məhəlləsi .................... 43
Mamayı məhəlləsi .................... 46
Köçərli məhəlləsi .................... 49

**Xoca Mərcanlı məhəlləsi** ........................................................ 52
**Dəmirçi məhəlləsi** ........................................................ 56
**Hamamqabağı məhəlləsi** ........................................................ 58
**Təzə məhəllə** ........................................................ 59
**Şuşanın sənət dünyasından** ........................................................ 68
**Evləri var, xana-xana...** ........................................................ 82
**Şuşalıların mənəvi dünyasından** ........................................................ 88
**"ƏZİZ ŞUŞA! BİZ QAYITMIŞIQ" və ya epiloq əvəzi** .............103
**BİBLİOQRAFİYA** ........................................................106

***Babayev Tofiq Ağababa oğlu***

***ŞUŞA: bu qala, bizim qala... (etnoqrafik etüdlər)***

**Mətbəənin direktoru: Elman Qasımov**

Yığılmağa verilmişdir: 17.04.2024
Çapa imzalanmışdır: 26.04.2024.
Formatı 70x100 1/12.
Həcmi 9.5 ç.v. Sifariş № 48. Tiraj 300

«Zərdabi Nəşr» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel: (012) 514-73-73, mob. (050; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru